

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 46 (686) ▪ 27 noyabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyevə «Jurnalistlərin dostu» mükafatı təqdim edilmişdir

*Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ikinci dəfə «Jurnalistlərin dostu» seçilməsi münasibətilə mərasim keçirilmişdir.*



Media işçiləri adından Prezident İlham Əliyevi ikinci dəfə «Jurnalistlərin dostu» mükafatına layiq görülməsi münasibətilə təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirmişdir ulu öndər Heydər Əliyevin mətbuata qayğı siyasəti sahəsində müəyyənləşdirdiyi ənənələr hazırda uğurla davam etdirilir: «Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə «Jurnalistlərin dostu» mükafatının qalibi kimi çıxışı, Azərbaycan mediasının dünəni, bugünü və sabahı ilə bağlı fikirlərini bölüşməsi hamımız üçün böyük şərəf və hər zaman fərəhlə anılan, unudulmaz xatirədir. İndi 2013-cü ilin qalibini təbrik etdiyimiz bir gündə 11 il öncəki tarixi də yada salmaqdan böyük məmnunluq duyuruq.

«RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin bu ilin sentyabrında təşkil etdiyi sorğuda ölkədə ictimai fikrə təsir göstərən 30 gündəlik, 15 həftəlik, 4 bölgə qəzetinin, 6 jurnalın, 11 informasiya agentliyinin, 12 xəbər portalının, 7 telekanalın, 4 radionun və 11 jurnalist təşkilatının rəyləri öyrənilibdir. Sorğunun nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 89 faiz səslə qalib gəlibdir. Cənab Prezident, bizim sorğuda ikinci və üçüncü yerləri tutanları da biz qeyd edirik. İkinci və üçüncü yerləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri və «Bakcell» şirkətinin baş icraçı direktoru bölüşüblər».

Mətbuat Şurasının sədri Əflatun Amaşov «Jurnalistlərin dostu» mükafatını Prezident İlham Əliyevə təqdim etmişdir.

Dövlətimizin başçısı mərasimdə geniş nitq söyləyərək ona göstərilən etimada görə ölkə jurnalistlərinə minnətdarlığını bildirmiş, ölkədə söz və mətbuat azadlıqlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirmişdir: «Doğrudan da mənim üçün böyük şərəfdir ki, ikinci dəfə bu ada layiq görülürəm. Çalışacağam ki, bundan sonra da «Jurnalistlərin dostu» kimi Azərbaycanda azad mətbuatın inkişafı üçün səylərimi əsirgəməyim. Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini «Jurnalistlərin dostu» adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda, Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır».

Azərbaycan mətbuatının uzun və şərəfli yol keçdiyini bildirən Prezident İlham Əliyev demişdir ki, demokratik cəmiyyətin qurulması işində azad medianın xüsusi rolu vardır. Dövlət başçısı Azərbaycanın demokratik inkişaf baxımından bu gün heç bir ölkədən geridə qalmadığını, ölkədə söz, mətbuat, sərbəst toplaşmaq, vicdan və digər azadlıqların təmin edildiyini diqqətə çatdırmışdır: «Azərbaycan o ölkələrdəndir ki, azad internet mövcuddur və internet istifadəçilərinin sayı 70 faizdən çoxdur. Heç bir məhdudiyyət yoxdur. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Bir sözlə, medianın inkişafı ilə bağlı dövlət tərəfindən yalnız dəstək göstərilir. Siz də qeyd etdiyiniz kimi, bəzi məsələlərdə, xüsusilə media nümayəndələrinin məişət problemlərinin həlli işində Azərbaycan ön yerlərdədir. Bu barədə mən bu ilin yayında öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Çünki jurnalistlərin o qədər də böyük maddi imkanları yoxdur. Onlar iş adamları, başqa kateqoriyadan olan insanlar kimi öz fəaliyyəti hesabına layiqli mənzillərə sahib ola bilmirlər. Ona görə dövlət öz dəstəyini mütləq verməlidir».

Bəzi hallarda Azərbaycanın «qara piar»la, ədalətsiz münasibətlə üzləşdiyini deyən Prezident İlham Əliyev ölkə mətbuatını belə təhdidlərə qarşı adekvat reaksiya verməyə çağırmışdır: «Azərbaycan cəmiyyəti iqtisadi cəhətdən, siyasi cəhətdən və ictimai fikir baxımından daha da sıx birləşməlidir. Hesab edirəm ki, burada medianın çox böyük rolu vardır və ola bilər. İlk növbədə, hesab edirəm, əsas məsələ ondan ibarətdir ki, bizim yerli mediamız xarici təsirdən azad olsun. Əlbəttə, biz demokratik cəmiyyətdə, plüralizm şəraitində yaşayırıq, müxtəlif fikirlər, siyasi baxışlar ola bilər. Mediamızın bir hissəsi hələ ki, siyasi partiyalara bağlıdır. Bu, ayrı bir mövzudur. Mənim bu məsələ ilə bağlı öz fikirlərim vardır. İstəmirəm bu barədə geniş danışım. Amma hər halda inkişaf etmiş ölkələrin praktikası onu göstərir ki, güclü medialar siyasi təsirdən bir qədər azad olmalıdır. Ancaq hələ ki, bu, belədir. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə, ölkədə aparılan siyasətlə bağlı müxtəlif fikirlər vardır və olmalıdır. Bu, təbiidir. Ancaq bir məsələdə - dövlət maraqlarımızın qorunması məsələsində, hesab edirəm ki, vahid fikir olmalıdır. Çünki Azərbaycanın gələcək inkişafı bizdən asılıdır. Azərbaycan xalqı bu gün öz taleyinin sahibidir və bizim siyasətimiz əsasında Azərbaycanın inkişafı təmin edilir. Ona görə, ilk növbədə, mediamızı xarici təsirdən azad etmək üçün əgər dövlətin əlavə dəstəyi lazımdırsa, biz bunu etməyə hazırıq».

Tədbirdə çıxış edən ölkə mətbuatının təmsilçiləri ölkədə azad sözün, mətbuatın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmiş, ikinci dəfə «Jurnalistlərin dostu» seçilməsi münasibətilə ölkə Prezidentini təbrik etmişlər.

Prezident İlham Əliyev səmimi təbriklərinə görə minnətdarlığını bildirmiş, ölkə jurnalistikasının hazırkı inkişaf səviyyəsinin qənaətbəxş olduğunu bildirmişdir: «Son prezident seçkiləri və ondan sonrakı dövr onu göstərir ki, Azərbaycanda siyasi mədəniyyət artır. Media nümayəndələri, iqtidar-müxalifət nümayəndələri də öz aralarında məsələlərini həll etməlidirlər. Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir Vətəni vardır - Azərbaycan. Hamımız vətənpərvərik, Vətənimizi sevirik. Ola bilər ki, ölkəmizin inkişafı ilə bağlı müxtəlif fikirlərimiz olsun. Kimsə kimisə istəməyə bilər. Bu da təbiidir. Ancaq biz əsas amallar ətrafında daim bir yerdə olmalıyıq».

# Belarus Respublikasının Prezidenti Azərbaycanda rəsmi səfərdə olmuşdur

*Noyabrın 21-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.*



Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə dinamik inkişafından məmnunluq ifadə olunmuş, əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilmişdir.

Sonra hər iki ölkənin dövlət başçılarının və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olmuşdur. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, ölkələr arasında ikitərəfli münasibətlər çox yüksək səviyyədədir. Münasibətlər bundan sonra da fəal inkişaf edəcək və dərinləşəcəkdir : «Qarşılıqlı siyasi əlaqələrimiz, siyasi məsləhətləşmələrimiz çox fəaldır. Son bir neçə ildə Belarus-Azərbaycan münasibətləri möhkəmlənmiş, çox yüksək səviyyəyə çatmışdır. Biz iqtisadi əlaqələrdə, sənaye istehsalı sahəsində, humanitar sahədə, energetika sahəsində yaxşı nəticələr əldə etmişik. Lakin ən başlıcası, son illərdə fəal qarşılıqlı əlaqələr bizi bir-birimizə o dərəcədə yaxınlaşdırmışdır ki, artıq nəinki regionda, həm də bütün dünyada Belarus və Azərbaycanı çox yaxın, dost ölkələr hesab edirlər».

Belarus Prezidenti Aleksandr Lukaşenko isə qeyd etmişdir ki, iki ölkə arasında ticari-iqtisadi sahədə, iqtisadiyyatda da çox sanballı dinamika yaranmışdır. 2006-2012-ci illərdə ticari əlaqələr altı dəfə artmışdır.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur. «Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko imzalamışlar. Bundan başqa, «Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında Azərbaycan Respublikası ərazisində yeni təhsil müəssisələrinin yaradılması haqqında Protokol», «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında Məsləhətləşmələr Planı», «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikasiya sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol», «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş» və «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişə əlavələr və dəyişikliklər edilməsi haqqında Protokol» imzalanmışdır.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış etmişlər. Prezident İlham Əliyev bildirmişdir ki, Belarus ilə Azərbaycan arasında əməkdaşlığı möhkəmlətmək, əmtəə dövriyyəsini artırmaq üçün çox yaxşı perspektivlər vardır. Tərəflər birgə istehsalatlar yaradılması istiqamətində də fəal iş aparır. Həmçinin təhsil, elm, yüksək texnologiyalar, energetika, kənd təsərrüfatı, istehsalat, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlıq nəzərdə tutulur: «Bu gün ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərini müəyyən etmək barədə də razılaşdıq. Artıq yaxşı nəticələr əldə edilmiş sahələrdə səylərimizi artırmalı, yeni istiqamətləri fəallaşdırmalıyıq. Məhz investisiya imkanlarını, Belarusda özəlləşdirmədə Azərbaycan müəssisələrinin iştirakını, habelə birgə istehsal edilmiş məhsulların üçüncü ölkələrin bazarlarına birgə çıxarılması məsələlərini ikitərəfli münasibətlərimizin yeni mövzuları kimi müəyyən etdik».

Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış edərək bildirmişdir ki, səfər zamanı hökumətlərarası komissiyaların iştirakı ilə əməkdaşlığın yeni istiqaməti müəyyən olunmuşdur: «Biz Azərbaycan biznesmenlərini və Azərbaycan dövlətini Belarus ərazisində maraqlandıra biləcək layihələrə daha geniş sərmayə qoyulması məsələsində Prezidentdən də dəstək aldıq. Bizim kooperasiya əlaqələrimiz necə əməkdaşlıq etmək lazım olduğunu göstərir. Bu gün biz bu haqda da danışdıq. Razılaşdıq ki, bu istiqaməti gücləndirəcəyik». Qeyd olunmuşdur ki, Belarus Azərbaycanda kənd təsərrüfatı texnikaları, traktorlar, eləcə də avtomobillər, avtobusların yığılmasını təşkil etmək niyyətindədir, həmçinin ölkəmizdə tibbi preparatlar buraxılışı üzrə obyektlərin tikintisi layihəsini dəstəkləməyə hazırdır.

Prezidentlər İlham Əliyev və Aleksandar Lukaşenko Belarus Respublikasının Azərbaycandakı səfirliyinin yeni binasının açılış mərasimində iştirak etmiş, Gəncə avtomobil zavodu ilə Belarusun MAZ zavodunun birgə istehsalı olan müxtəlif təyinatlı texnika və avtomobillərlə tanış olmuşlar.

2 | Milli Məclis 2014-cü ilin dövlət büdcəsini təsdiq etmişdir

3 | Vergi nəzarəti sisteminin müasir modelinə keçid vergi partnyorluğu konsepsiyasının düzgün tətbiqini tələb edir

4 | Vergi orqanları və ödəyicilər arasında körpü

5 | Nağdsız ödənişlərin təşviqi üçün müxtəlif kampaniyalar keçirilir

# Belarusun vergilər və yığımlar naziri ilə görüş

*Noyabrın 20-də Azərbaycanın vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Belarus Respublikasının vergilər və yığımlar naziri Vladimir Poluyanla görüşmüşdür.*

Səmimi şəraitdə keçən görüşdə Azərbaycan ilə Belarus arasındakı dostluq münasibətlərinin inkişaf etdiyini vurğulayan F.Məmmədov qeyd etmişdir ki, son illər yüksək iqtisadi inkişafa nail diklərini, bir sıra sahələrdə təcrübə mübadiləsi aparılmasında, ölkəmizdə tətbiq edilən innovativ yeniliklərin öyrənilməsində maraqlı olduqlarını vurğulamışdır. Qonaq hər iki dövlət qurumları arasında əlaqələrin genişləndirilməsi, məlumat və təcrübə mübadiləsi, gələcəkdə qarşılıqlı maraq kəsb edən layihələrin həyata keçirilməsinin vacibliyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilmişdir.



olan Azərbaycanla böyük sənaye potensialına malik Belarus arasında bir çox sahələr üzrə geniş əməkdaşlıq imkanları mövcuddur.

Daha sonra hər iki ölkənin vergi sahəsində əməkdaşlığının potensialı və inkişaf perspektivləri müzakirə olunmuşdur. Vergilər naziri Azərbaycanın vergi xidmətində aparılan islahatlar, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi sahəsində əldə olunan nailiyyətlər barədə qonağa məlumat vermiş, ölkəmizdə beynəlxalq təcrübəyə əsaslanan müasir innovativ vergi inzibatçılığının qurulması istiqamətində məqsədyönlü işlərin aparıldığını qeyd etmişdir.

Belarus Respublikasının vergilər və yığımlar naziri Azərbaycanın vergi xidmətinin əldə etdiyi nailiyyətləri izlə- Görüşdən sonra Belarusun vergilər və yığımlar naziri Azərbaycan Vergilər Nazirliyinin server mərkəzi ilə tanış olmuşdur.

Ertəsi gün 2004-cü il noyabr ayının 5-də imzalanmış və 2005-ci il avqust ayının 19-dan qüvvəyə minmiş «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş»ə əlavə və dəyişikliklərin olunması barədə Protokol imzalanmışdır. Protokolu Azərbaycan hökuməti adından Azərbaycan Respublikasının vergilər naziri cənab Fazil Məmmədov, Belarus hökuməti adından Belarus Respublikasının vergilər və yığımlar naziri cənab Vladimir Poluyan imzalamışlar.

# Vergilər naziri Şamaxıda vətəndaşları qəbul etmişdir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə kömək göstərirlər.**



Növbəti belə qəbul noyabr ayının 22-də Şamaxı şəhərində yerləşən 4 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında Şamaxı, Ağsu və Qobustan rayonlarının sakinləri üçün keçirilmişdir. Vergi ödəyicilərinə göstərilən xidmətlər, vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 50-dək vətəndaş vergilər nazirinə müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, vətəndaşlar tərəfindən verilən müxtəlif təkliflər qeydə alınmış, digər məsələlərin isə araşdırılması və lazımi tədbirlər görülməsi barədə müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

# Milli Məclis 2014-cü ilin dövlət büdcəsini təsdiq etmişdir

## *Parlamentdə bir sıra qanunlara, o cümlədən Vergi Məcəlləsinə dəyişikliklər qəbul olunmuşdur*

*«Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında» qanun layihəsinin parlamentdə müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov çıxış edərək büdcə layihəsinə edilən dəyişiklikləri deputatların diqqətinə çatdırmışdır.*

Bildirilmişdir ki, büdcə layihəsinin müzakirəsi zamanı deputatlar qeyri-neft sahələrinin inkişaf etdirilməsi, vergi borclarının azaldılması, vergidən yayınmaların qarşısının alınması, əhalinin maddi-rifah halının yaxılaşdırılması, ölkəmizin müdafiə potensialının daha da gücləndirilməsi, elm, təhsil, səhiyyə, mədəniyyət sahələri üçün əlavə büdcə vəsaitlərinin cəlb edilməsi, sənaye və aqrar sektorlara dövlət dəstəyinin artırılması, qeyri-neft sektorunun və regionların inkişafı, kommunal sahədə islahatların aparılması, bələdiyyələrin fəaliyyətinin artırılması barədə təkliflər səslendirmişlər. Bunlarla yanaşı, millət vəkilləri tərəfindən ölkəmizdə sosial, sənaye, emal, yol, qaz, su-kanalizasiya, kənd təsərrüfatı infrastrukturunun tikintisi və əsaslı təmiri, vəsaitlərdən istifadəyə nəzarətin artırılması barədə təkliflər irəli sürülmüşdür. Hökumət həmin təklifləri təhlil etmiş, bəzilərini müsbət qarşılamış və dövlət büdcəsinin gəlir və xərclər hissəsinə dəyişikliklər olunmuşdur. Həll olunmayan məsələlər isə hökumətin diqqətində saxlanılır və növbəti illərdə onlara baxılacaqdır.

Nazir bildirmişdir ki, 2014-cü ilin dövlət büdcəsi balanslaşdırılmış büdcədir və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasəti növbəti ildə həyata keçirmək üçün zəmin yaradacaqdır.

Sonra 2014-cü ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan 2014-cü il üçün yaşayış minimumu və ehtiyac meyarının həddi haqqında qanun layihələri, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin və Hesablama Palatasının 2014-cü il üçün xərclər smetası haqqında, «Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi haqqında» qanun layihələri səsə qoyularaq təsdiq edilmişdir.

Milli Məclisin iclasında Mülki, İnzibati Xətalar, Vergi məcəllələrinə, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında», «Patent haqqında», «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında», «Daşınmaz əmlakın dövlət reyestri haqqında», «Dövlət rüsumu haqqında», «Sosial sığorta haqqında», «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» qanunlara və «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi «Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı»nda dəyişikliklər edilmişdir.

«Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanunda edilən dəyişikliklə kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən müddətli vergi güzəştlərinin müddəti artırılmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü il yanvarın 1-dən başlayaraq daha 5 il müddətinə Vergi Məcəlləsi ilə müəyyən edilən mənfəət və əlavə dəyər vergilərini, sadələşdirilmiş vergi sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad olunacaqlar.



*«Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanunda edilən dəyişikliklə kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən müddətli vergi güzəştlərinin müddəti artırılmışdır*

Qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin tətbiqi 2001-ci ildən başlamışdır və 13 ildən bəri bu siyasət təxminən 1,4 milyard manat vəsaitin fermerlərdə qalmasına və həmin vəsaitin istehsalın inkişafına yönəldilməsinə imkan vermişdir. Bunun nəticəsində istehsalın həcmi 4,4 dəfə artmışdır.

**Rəşad SADIQOV**

# İtaliya nümayəndələri Vergilər Nazirliyində olmuşlar

*Noyabrın 21-də vergilər nazirinin müavini Sahib Ələkbərov İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin keçmiş müavini, «Farefuturo Fondazione» fondunun rəhbəri Adolfo Urso və İtaliya-Azərbaycan Ticarət İnstitutunun prezidenti xanım Manuela Traldi ilə görüşmüşdür.*

İtaliyanın ölkəmizin ən böyük ticarət tərəfdaşlarından olduğunu vurğulayan S.Ələkbərov hazırda ölkəmizin sığorta, bank, ticarət və digər sahələrində onlarca İtaliya şirkətinin fəaliyyət göstərdiyini bildirmişdir. Nazir müavini qonaqlara Azərbaycandakı investisiya mühiti və ölkəmizin vergi sistemi, bu sahədə aparılan islahatlar barədə ətraflı məlumat vermişdir.

Azərbaycanda olmasından məmnunluğunu bildirən A.Urso İtaliya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu, siyasi və iqtisadi baxımdan stabil və sürətlə inkişaf edən Azərbaycanın regionda etibarlı tərəfdaş ölkəyə çevrildiyini qeyd etmişdir. O, İtaliya şirkətlərinin ölkəmizdə uğurlu layihələr həyata keçirdiyini və gələcəkdə Azərbaycanla əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduqlarını bildirmişdir.

Görüşdə Vergi Məcəlləsi, ayrı-ayrı sahələrdə mövcud olan vergi güzəştləri, habelə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

*Noyabr ayının 19-da 2 saylı ƏVİ-nin Vergi borclarının alınması işinin təşkili şöbəsinin əməkdaşları tərəfindən Sumqayıt şəhəri Nəsimi parkında yerləşən, fiziki şəxs İsmayılov Rafiq Gəray oğluna məxsus «Xəzərin sahilində» restoranında əmlakın siyahıya alınması tədbirləri həyata keçirilmişdir.*

Restoranın fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 2398 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə oktyabr ayının 25-də bildiriş göndərilsə də borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Noyabr ayının 4-də Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi restorandakı əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və həmin ayın 19-da 2400 manatlıq müxtəlif növ məişət avadanlığı müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Noyabrın 21-də isə Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması işinin təşkili şöbəsinin əməkdaşları tərəfindən Nərimanov rayonu, Şahin Mustafayev küçəsi, 25 ünvanda yerləşən «Ərşad» firmasına məxsus «Lalə» restoranında əmlakın siyahıya alınması tədbirləri həyata keçirilmişdir.

Restoranın 9433 manat məbləğində vergi borcunun ödənilməsini təmin etmək məqsədilə obyektdəki əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və obyektdəki 10.500 manatlıq mebel dəstləri və texnki avadanlıqlar müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

# 65 nəfər «vergi dostu» seçilmişdir

*Noyabr ayının 20-də Şamaxı şəhərində vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vətəndaşlarda yüksək vergi mədəniyyətini formalaşdırmaq və bu işə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə seçilmiş Şamaxı, Qobustan və Ağsu rayonlarının ümumtəhsil məktəblərinin müəllimləri ilə görüş keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müşaviri Ələkbər Məmmədov vergi ödəyicilərinə göstərilən xidmətlər və bu sahədə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən layihələr, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında Vergilər Nazirliyinə aid nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə qəbul olunmuş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Qeyd edilmişdir ki, nazirlik tərəfindən ərazi vergilər idarələrinin və Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzləri istisna olmaqla, kənar kənd və qəsəbələrdə ictimaiyyətin daha aktiv üzvü olan müəllimlərdən ibarət «Vergi dostları» şəbəkəsi yaradılmışdır. Gənc nəslin vergilər haqqında biliklərinin artırılmasında, şagird və tələbələr arasında vergi mədəniyyətinin formalaşdırılmasında «Vergi dostları»nın üzərlərinə götürdükləri öhdəlik böyük ictimai əhəmiyyət daşıyır. İndiyədək respublika üzrə 1329 nəfər müəllimə müvafiq təlim keçilmiş və «vergi dostu» sertifikatı təqdim olunmuşdur.

Vergi ödəyicilərinə xidmət idarəsinin rəis müavini Elçin Məmmədov çıxışında bildirmişdir ki, müasir vergi siyasətinin əsas istiqamətlərindən biri məcburi vergi yığımlarından könüllü vergi ödəmələrinə keçidi təmin etməkdir. Bu məqsədlə vergi orqanları vergi ödəyiciləri arasında vergi mədəniyyətini yüksəltmək məqsədilə bu sahədə təbliğat, məlumatlandırma və maarifləndirmə işini gücləndirir. Məqsəd vergi ödəyicilərinə şərait yaratmaqdır ki, onlar istənilən vaxt, istənilən yerdən lazım olan məlumatları əldə edə bilsinlər.

Tədbirin sonunda təlimi müvəffəqiyyətlə başa vurmuş 65 nəfər «vergi dostu»na üzvlük sertifikatı, «vergi dostu»nun yaddaş kitabçası və kompüterlər təqdim olunmuş, onlar əməkdaşlıq barədə öhdəlik vərəqələrini imzalamışlar. Beləliklə, respublika üzrə «vergi dostları»nın ümumi sayı 1394 nəfərə çatmışdır.

# Vergi nəzarəti sisteminin müasir modelinə keçid vergi partnyorluğu konsepsiyasının düzgün tətbiqini tələb edir



Asəf Əsədov
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri

*Ənənəvi vergi nəzarəti sistemi 50-60 il əvvəl yaradılmış vergitutma prinsipləri əsasında qurulmuşdur. Bu sistem vergi administrasiyası üçün böyük inzibati xərclər tələb edir və vergi orqanları vergi ödəyiciləri ilə münasibətlərdə etibarlılığa deyil, onları daim nəzarətdə saxlamağa üstünlük verir.*

Son 10 ildə inkişaf etmiş ölkələrdə müasir vergi nəzarəti sistemində köklü dəyişikliklər və modernizasiya tədbirləri həyata keçirilmişdir. Vergi inzibatçılığının modernləşdirilməsində Niderland Krallığı və Avstraliyanın vergi administrasiyaları aparıcı rol oynayıblar. 2008-ci ildən başlayan və faktiki olaraq hələ davam edən maliyyə böhranı ilə bağlı dövlət orqanları, birinci növbədə, vergi administrasiyaları qarşısında xərclərin azaldılması, həmçinin səmərəliliyin artırılması kimi vəzifələr qoyulmuşdur.

Bu məqsədlə vergi nəzarəti sistemində yeni yanaşma tətbiq edilməyə başlanmışdır: yüksək təsdiq və vergi ödəyicilərinə şübhə ilə yanaşmaqdan onlarla partnyorluq münasibətlərinin qurulmasına və informasiya texnologiyalarına əsaslanan intellektual nəzarət texnologiyalarından (risklərin qiymətləndirilməsi və e-audit) istifadə etməklə müasir tələblərə cavab verən vergi nəzarəti sisteminə keçid edilmişdir. İnkişaf etmiş ölkələrin vergi administrasiyalarının təcrübəsini nəzərə alaraq müasir vergi auditi sisteminin tətbiqi ilkin olaraq vergi ödəyicisinin daxili nəzarət sisteminin və vergi risklərinin qiymətləndirməsini tələb edir və bu, yalnız vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı etibar və əməkdaşlıq platformasında mümkündür. Niderland Krallığı hökumətinin «Qanunlara əsaslanan cəmiyyətin gələcəyi» («The future of Law-Based Society») konsepsiyasına uyğun olaraq Niderland Krallığının Vergi və Gömrük Administrasiyası 2005-ci ildə horizontal monitorinq konsepsiyasının tətbiqinə başlamışdır. Horizontal monitorinq sazişləri ilk olaraq iri vergi ödəyiciləri, xüsusən də transmilli korporasiyalar ilə imzalanmışdır. 2005-ci ildə 20, 2006-cı ildə 40, 2007-ci ildə 40, 2008-ci ildə 50 və 2009-cu ildə 60 iri transmilli korporasiya ilə horizontal monitorinq ilə bağlı müvafiq sazişlər imzalanmışdır, bu isə 5 il ərzində cəmi iri vergi ödəyicilərinin 10%-ni təşkil etmişdir. İki il (2005-2006-cı illər) davam edən sınaq mərhələsinin nəticələri həm vergi orqanı, həm də vergi ödəyiciləri tərəfindən müsbət qiymətləndirilmişdir və bundan sonra digər müəssisələrdə tətbiq edilməsinə qərar verilmişdir.

Niderland Krallığının vergi administrasiyasının təcrübəsi digər ölkələrdə də tətbiq edilir (Koreya, Avstraliya, İsveç, İngiltərə və s.) və Niderlanddakı horizontal monitorinqin geniş miqyasda tətbiqini OECD və Dünya Bankı da tövsiyə ediblər.

2009-cu ildə Cənubi Koreyanın vergi administrasiyası (NTS) horizontal monitorinqin tətbiqinə başlamışdır. İlk olaraq 40 şirkət arasından 15 iri vergi ödəyicisi seçilib, sinaq müddəti isə 15 ay davam edib. Seçim tələbləri aşağıdakılar olub:

1. İllik gəliri 66 milyon avrodan az olmamalıdır;

2. Şirkətin güclü daxili nəzarət sistemi olmalıdır, şirkət öz biznesinin təşkili və son 3 il üzrə investisiyalar barədə məlumatı, maliyyə hesabatlarını təqdim etməlidir.

2006-cı ildə Avstraliyanın vergi administrasiyası (ATO) illik dövriyyəsi 100 milyon Avstraliya dollarından az olmayan iri şirkətlərlə vergiyə əmələtmə sazişlərinin imzalanmasına başlamışdır. 2008-ci ildə 50 ən iri şirkətlə birillik sazilşlər bağlanmışdır.

2005-ci ildə İngiltərə vergi administrasiyası (HMRC) nəzdində iri biznes departamenti təşkil olunmuşdur. 2006-cı ildən başlayaraq bu departament illik dövriyyəsi 200 milyon funt-sterlinqdən az olmayan iri şirkətlərlə yeni tipdə əlaqələr qurmağa başlamışdır. İlk olaraq belə şirkətlər sırasına daxil olan hər bir iri vergi ödəyicisi üçün vergi riskləri barəsində məlumatlar toplusu (risk profile), o cümlədən şirkətin həcmi, işlədiyi sahə və sektor, daxili nəzarət sisteminin güclü və zəif tərəfləri, daxili etika qaydaları və sair məlumatlar müəyyən edilmişdir. Həmin şirkətlərin maliyyə direktorları xüsusi öhdəlik kimi hazırlanmış hesabatların və məlumatların tam və düzgün olmasına imza atır və bu barədə vergi orqanına xüsusi arayış verirlər ( tic-statement).

Vacib məqam odur ki, artıq qəbul olunmuş beynəlxalq təcrübəyə əsasən, iri vergi ödəyicisi olan hər bir şirkətlə onun xüsusiyyətlərini nəzərə alaraq horizontal monitorinq üzrə fərdi saziş imzalanır. Horizontal monitorinq tətbiq etmiş bütün ölkələr, ilk növbədə, sınaq mərhələsindən başlayaraq ancaq iri vergi ödəyiciləri ilə müvafiq sazişlər imzalamışdılar. Buna əsas səbəb odur ki, inkişaf etmiş ölkələrdəki müfaviq qanunvericiliyə əsasən, iri vergi ödəyiciləri güclü mühasibat sistemi ilə yanaşı, özlərində daxili auditin keçirilməsinə və vergi risklərinin daim nəzarətdə saxlanılmasına məcburdurlar. İri şirkətlərdə maliyyə direktoru maliyyə hesabatlarının, o cümlədən vergi hesabatlarının tam və düzgün olmasına fərdi olaraq qanun qarşısında cavabdehlik daşıyır.

Kiçik və orta müəssisələrə gəldikdə isə inzibati resurslardan optimal istifadə etmək baxımından, bu müəssisələri təmsil edən assosiasiyalar və kommersiya palataları ilə vergi orqanları arasında kollektiv sazişlər əsasında işləmək daha müvafiq hesab olunur. Belə assosiasiyalar və palatalar da öz üzvləri olan müəssisələrdə müəyyən standartların (mühasibat üçotu, daxili nəzarət qaydaları, müəyyən göstəricilərə əsasən vergi risklərinin hesablama qaydaları) tətbiqinə nail olmalıdırlar ki, sonradan vergi administrasiyası müəssisələr ilə horizontal monitorinq sazişləri barədə danışıqlar apara bilsin.

Azərbaycan Vergi Məcəlləsində 2013-ci ildən qüvvəyə minmiş dəyişikliklər və Nazirlər Kabinetinin təsdiq etdiyi «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları» horizontal monitorinq konsepsiyasının ölkəmizdə də reallaşdırılmasına yol açmışdır. Vergi partnyorluğu sazişlirinin tətbiqi vergi ödəyiciləri üçün aşağıdakı əsas üstünlükləri təmin edəcək:

1) Vergi ödəyicilərində səyyar vergi yoxlamaları daha az müddətdə keçiriləcəkdir. Əgər vergi ödəyicisi mütəmadi qaydada tələb olunan məlumatları vaxtlı-vaxtında, tam və tələb olunan formatda vergi orqanına təqdim edərsə, növbəti səyyar yoxlamada bu müddətlərin auditi daha asan və vergi ödəyicisi üçün az vaxt aparan prosedurlar tətbiq etməklə qısa müddət ərzində həyata keçirilə bilər.

2) Vergi ödəyicisinin vergi riskləri təhlil edilib minimallaşdırıla bilər.

Birinci növbədə, sazişə imza atmış vergi ödəyicisi biləcək ki, hansı hallarda və hansı göstəricilərə görə vergi orqanları onun biznes əməliyyatlarını vergi öhdəliklərinin düzgün ödənilməsi baxımından riskli hesab edəcək. Bu məqsədlə Vergi Məcəlləsinin maddələri ilə əlaqədər vergi ödəyicisini onun biznes əməliyyatları ilə bağlı narahat edən məsələlər, o cümlədən tətbiq ediləcək qiymətlərin bazar qiymətləri kimi qəbul edilməsi ilə bağlı qeyri-müəyyənlik, ondan mal və ya xidmət almaq istəyən şirkətlərin vergi borcları ilə bağlı vəziyyəti və digər sual doğuran vergi məsələləri aradan qaldırıla bilər.

3) Vergi partnyorluğu sazişinin şərtlərini yerinə yetirən vergi ödəyicisi öz vergi risklərini vaxtlı-vaxtında minimallaşdırmaqla intizamlı vergi ödəyicisi kimi özünün sosial və kommersiya nüfuzunu artıra bilər. Belə ki, intizamlı vergi ödəyiciləri vergi orqanı tərəfindən biznes ictimaiyyəti üçün aşkar olunur və banklar, yerli və xarici investisiya fondları birinci növbədə belə intizamlı vergi ödəyicilərinə üstünlük verirlər.

4) Vergi partnyorluğu sazişlərinin düzgün formatda tətbiqi müəyyən sınaq müddəti keçdikdən sonra Azərbaycanda biznez aləmində maliyyə şəffaflığının və nəticə etibarilə qeyri-neft sektorunda kreditlərin və investisiyanın artmasına gətirəcəkdir. Öz növbəsində, qeyri-neft sektorundan vergi daxilolmaları da artacaqdır.

İnkişaf etmiş ölkələrdə vergi orqanlarının tətbiq etdikləri vergi auditi sistemlərində vergi ödəyicisinin Daxili Nəzarət Sisteminin (DNS) təhlili xüsusi rol oynayır və Azərbaycanın audit sistemində də bu yanaşma öz əksini tapmalıdır. DNS-nin auditor tərəfindən yoxlanması zamanı, faktiki olaraq, 3 sahəyə diqqət yetirilməlidir:

1) Sahibkara və ya səhmdarlara qarşı işçilər tərəfindən maliyyə fırıldaqçılığına qarşı vergi ödəyicisinin daxili nəzarət siyasətinin və tədbirlər planının olub-olmaması;

2) Menecment tərəfindən işçi heyət arasında vəzifələrin (alış sifarişi, əməliyyatların mühasibat informasiya sisteminə daxil edilməsi, əməliyyatların təsdiq edilməsi, ödənişə icazənin verilməsi, ödənişlərin aparılması, anbara nəzarət funksiyalarının yerinə yetirilməsi) düzgün bölüşdürülməsi;

3) Mühasibat-informasiya sistemində aparılmış əməliyyatların (satış, alış, əməkhaqqı ödənişləri, bank və kassa əməliyyatları, anbarda mal qalığı) tam və vaxtlı-vaxtında qeyd olunmasına nəzarət, informasiya texnologiyaları bölməsinin heyəti və digər şəxslər tərəfindən kompüter verilənlər bazasına daxilolma, orada mühasibat qeydləri ilə bağlı icazəsiz silmə və düzəlişlərin edilməsinə nəzarət mexanizminin olub-olmaması.

Vergi partnyorluğu sazişinin imzalanmasından əvvəl namizəd şirkətdə vergi müfəttişi tərəfindən keçirilən monitorinq zamanı DNS-nin yoxlanması nəticələri faktiki olaraq audit informasiya sistemində saxlanılan və sonradan yoxlama zamanı alınan e-məlumatların və hesabatların nə qədər etibarlı olub-olmadığını aydınlaşdırmağa imkan verir.

**Əgər vergi ödəyicisi tərəfindən işlədilən mühasibat-informasiya sistemi beynəlxalq mühasibat standartlarına (İFRS) cavab verirsə və baş kitabda (və ayrı-ayrı jurnallarda) yazılışların silinməsini və ya dəyişdirilməsini sistemin özündə izləmək olursa, onda bu sistemdə saxlanılan və sonradan e-auditor tərəfindən təhlil edilən e-məlumatlara da etibar etmək olar. Bu isə, xarici təcrübəyə əsasən, mühasibat üçotu üzrə kompüter proqramlarının sertifikatlaşdırılması və ya vergi orqanı tərəfindən bu proqramlardan əldə olunan məlumatlara etibar etmək üçün əsas şərtdir.**

Vergi partnyorluğu sazişinin şərtlərini yerinə yetirən vergi ödəyicilərinin üstünlüyü kimi onlara münasibətdə, əsasən, distant e-auditin tətbiq edilməsi yolu ilə müəssisədə vergi yoxlamalarının keçirilmə müddətinin əhəmiyyətli dərəcədə (3-4 dəfə) azaldılmasını qeyd etmək olar. Bununla yanaşı, eyni vergi ödəyicisində gələcəkdə yüksək vergi riskləri aşkar olunarsa, bu halda vergi ödəyicisinin «könüllü əməletmə statusu» dəyişiləcək, vergi partnyorluğu sazişi ləğv ediləcək və belə neqativ hal şirkətin nüfuzuna mənfi təsir göstərməklə onun tərəfindən gələcəkdə kredit və investisiyaların alınmasını məhdudlaşdıracaq.

Horizontal Monitorinq Konsepsiyasının əsas strateji əhəmiyyəti - vergilərin düzgün və tam şəkildə ödənilməsində dövlət orqanlarının yükünü biznes cəmiyyəti ilə bölüşdürmək, münasibətləri qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında qurmaqdır.

Horizontal Monitorinq (Azərbaycanda Vergi Partnyorluğu) Konsepsiyasının tətbiqi üçün aşağıdakı başlıca məqamlara diqqət verilməlidir:

1) Vergi ödəyicisi saziş bağlamaq haqqında öz niyyətini bildirir;

2) Vergi ödəyicisinin vergi öhdəliklərinin icrasının vergi orqanı tərəfindən ilk monitorinqi həyata keçirilir;

3) Vergi orqanı ilə vergi ödəyicisi arasında qaranlıq qalan məsələlər (o cümlədən dövlət büdcəsinə vergilər, faizlər, maliyyə sanksiyaları və digər öhdəliklər üzrə borclar) həll olunur;

4) Vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinə nəzarət və onların minimallaşdırılması, vergilərin tam və vaxtında ödənilməsi barədə saziş imzalanır;

5) Vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi riskləri baxımından şübhəli şirkətlərlə əməliyyatlar aparmaması barədə əvvəlcədən xəbərdarlıq edilir, bəyannamənin göndərilməsindən əvvəl səhvlər yoxlanılır və düzəlişlərdən sonra bəyannamənin məqbul olub-olmaması barədə münasibət bildirilir.

**Vergi partnyorluğu sazişi hər bir vergi ödəyicisi ilə avtomatik imzalanmır.** Sazişə qədər vergi ödəyicisi özünün mühasibat və vergi uçotunu təkmilləşdirməli, xüsusən də iri vergi ödəyicisi sertifikatlaşdırılmış mühasibat proqramı təminatından istifadə etməli, daxili nəzarət və vergi risklərinin təhlili sistemlərini yaradaraq faydalı surətdə işlətməlidir. Faktiki olaraq, sözügedən vergi partnyorluğu sazişinin əsas məqsədi, ilk növbədə, intizamlı vergi ödəyicisinin seçilməsi və dəstəklənməsidir. Ona görə də bu sazişə qədər vergi ödəyicisi vergi orqanları ilə birgə hazırlıq işləri həyata keçirməli və bundan sonra tam məsuliyyətlə könüllü şəkildə saziş imzalamalıdır.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

## Fiziki şəxslərə məxsus daşınmaz əmlakın satışının vergiyə cəlb olunması məsələləri

Azərbaycan Vergi Məcəlləsinə əsasən, fiziki şəxslərə məxsus aktivlərin, o cümlədən daşınmaz əmlakın təqdim olunmasından əldə edilən gəlirlər, gəlirdən çıxılan xərclər nəzərə alınmaqla, gəlir vergisinin vergitutma obyektini yaradır.

Dünyanın sivil ölkələrində olduğu kimi, Azərbaycanda da fiziki şəxslərə məxsus yaşayış binalarının və mənzillərin satışından gəlir vergisinin tutulması məsələlərinə xüsusi diqqət yetirilir. Çünki mənzil alqı-satqısı elə bir spesifik məsələdir ki, burada satışı həyata keçirən şəxslərin həmin əməliyyatın aparılmasında iki əsas məqsədi ola bilər: 1. fiziki şəxsin mənzil şəraitinin yaxşılaşdırılması; 2. mənzil satışından yalnız gəlir götürülməsi. Lakin istənilən halda mənzil satışı ilə bağlı məsələlər sosial xarakter daşıdığından burada vergitutma məsələlərinə çox düzgün və obyektiv yanaşmaq tələb olunur. Buna görə də əksər ölkələrin vergi qanunvericiliyinə mənzil satışının vergiyə cəlb olunmasına dair xüsusi müddəalar daxil edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.8-ci maddəsində nəzərdə tutulmuşdur ki, fiziki şəxsin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlir vergidən azaddır. Bu müddət 3 ildən az təşkil etdiyi halda isə mənzil satışından əldə olunmuş gəlirin (xalis gəlirin) 30000 manatadək hissəsindən 14%, 30000 manatdan yuxarı olan hissəsindən isə 25% dərəcə ilə gəlir vergisi tutulur.

*Mənzil satışı ilə bağlı məsələlər sosial xarakter daşıdığından burada vergitutma məsələlərinə çox düzgün və obyektiv yanaşmaq tələb olunur*

Qeyd etmək lazımdır ki, əmlakın fiziki şəxsin mülkiyyətində qanunvericiliklə müəyyən edilmiş müddətdən çox olması ilə əlaqədar onun satışının vergidən azad olunması və ya güzəştli dərəcələrlə vergiyə cəlb edilməsi məsələləri bir çox ölkələrin qanunvericiliyində öz əksini tapmışdır.

ABŞ təcrübəsinə əsasən, fiziki şəxsin satdığı evdən əldə etdiyi gəlirdən vergi ödənilməməsi üçün həmin şəxs bu evdə ən azı iki il yaşamış olmalıdır. Bu zaman şəxs subay olduğu təqdirdə, onun vergi tutulan gəlirindən 250 min ABŞ dolları, evli olduğu təqdirdə isə 500 min ABŞ dolları miqdarında məbləğ çıxılır. Yerdə qalan məbləğ vergitutulan gəlirə daxil edilir və kapital artımı vergi dərəcəsi ilə vergiyə cəlb olunur. ABŞ-da kapital artımı vergisi sabit dərəcə ilə - 28% tətbiq olunur. Digər tərəfdən, qanunvericilikdə nəzərdə tutulmuşdur ki, əgər daşınmaz əmlak bir ildən az müddət ərzində istifadə olunarsa, əldə edilən gəlirdən müvafiq məbləğlər (250 min ABŞ dolları və ya 500 min ABŞ dolları) çıxıldıqdan sonra yerdə qalan məbləğ gəlir vergisinin dərəcələrinə uyğun qaydada vergiyə cəlb olunur. Bu zaman satışdan əldə olunan gəlirin məbləği müvafiq məbləğlərdən (250 min ABŞ dolları və ya 500 min ABŞ dolları) az və ya onlara bərabər olarsa, ondan vergi tutulmur.

Kapital artımı əmlakın satış dəyəri ilə bazar dəyəri arasındakı fərq kimi müəyyən edilir. Bazar dəyəri isə alış qiymətinin üzərinə təmir və quraşdırma xərcləri gəlməklə alınmış məbləğdən amortizasiya ayırmalarının çıxılması yolu ilə hesablanır. Kapital artımından isə müvafiq məbləğlər (250 min ABŞ dolları və ya 500 min ABŞ dolları) çıxılaraq vergiyə cəlb olunan kapital artımı müəyyən edilir.

Avropa Birliyində fiziki şəxslərə məxsus daşınmaz əmlakın alqı-satqısının vergiyə cəlb olunmasına yanaşmalar müxtəlif olsa da, onları birləşdirən xüsusiyyətlər də çoxdur. Fransada əsas yaşayış yerinin satışından əldə edilən gəlir vergiyə cəlb olunmur. Bununla yanaşı, otuz il və daha çox müddətdə fiziki şəxsin mülkiyyətində olan əmlakların satışından gəlir də vergiyə cəlb olunmur. Bundan başqa, ölkədə əhalinin mərkəzə köçmə axınının tənzimlənməsi və uzun müddətə eyni bir yerdə yaşamalarının stimullaşdırılması məqsədilə altı ildən otuz ilə qədər dövrdə mülkiyyətdə olan əmlakın satışına reqressiv vergi dərəcəsi tətbiq olunur və vergi dərəcəsi əmlakın mülkiyyətdə olduğu hər növbəti il üçün azaldılır. Digər tərəfdən, qeyri-rezident fiziki şəxslərə məxsus əmlaklarla aparılan əməliyyatların tənzimlənməsi üçün diferensial vergi dərəcələri tətbiq olunur. Ümumi vergi dərəcəsi rezidentlər üçün (AB, İslandiya və Norvec) 19% nəzərdə tutulduğu halda, digər ölkələrin rezidentləri üçün 33%-dir. Qeyri-rezidentlərin əsas yaşayış yeri Fransa olmadığı üçün onlar vergitutma zamanı əsas yaşayış yeri ilə bağlı güzəştdən istifadə edə bilmirlər və yalnız Fransadakı əmlak onların mülkiyyətində on beş ildən artıq müddətdə olduqda, vergidən azad oluna bilərlər.

Almaniyada əmlak on ildən artıq müddətdə mülkiyyətdə olubsa, o zaman onun satışından əldə edilən gəlirdən vergi tutulmur. Digər hallarda, on ildən az mülkiyyətdə olan əmlakın satışından (onun alınması və saxlanması ilə bağlı xərclər çıxıldıqdan sonra ) vergi adi qaydada - 25% dərəcə ilə tutulur.

İtaliyanın vergi qanunvericiliyinə əsasən, daşınmaz əmlak mülkiyyətdə beş ildən az müddətdə olubsa və ya əsas yaşayış yeri kimi istifadə olunmayıbsa, o zaman onun satışından əldə edilən gəlirin vergiyə cəlb olunması ümumi qaydada həyata keçirilir.

MDB ölkələrinin vergi qanunvericiliyində də fiziki şəxslərə məxsus daşınmaz əmlakın vergiyə cəlb olunmasının oxşar xüsusiyyətlərinə rast gəlmək olar. Misal üçün, Rusiyanın qanunvericiliyinə əsasən, daşınmaz əmlak fiziki şəxsin mülkiyyətində üç ildən az müddətdə olduğu halda, onun satışından əldə edilən gəlir ümumi qaydada gəlir vergisinə cəlb olunur. Bu zaman onun sahibi əmlakın alınması və ya saxlanması ilə bağlı xərclərini sübut edə bilərsə, satışdan əldə olunan gəliri həmin məbləğ qədər azalda bilər.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi ödəməkdən yayınma cinayətinin subyekti

***Hüquqi şəxslərdə müvafiq maliyyə-təsərrüfat fəaliyyətinin rəsmi şəkildə təyin edilmiş rəhbər tərəfindən deyil, faktiki rəhbər tərəfindən həyata keçirilməsi hallarında, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən vergi ödəməkdən yayınma cinayətinin subyekti kimi faktiki rəhbər cinayət məsuliyyətinə cəlb edilə bilərmi?***

Qeyd edilən məsələnin aydınlaşdırılması ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən «Cinayət Məcəlləsinin 213.1-ci maddəsinin və Vergi Məcəlləsinin 78.3 və 78.4-cü maddələrinin şərh edilməsinə dair Konstitusiya Məhkəməsi Plenumunun Qərarı» qəbul olunmuşdur. Qərarda qeyd edilmişdir ki, Azərbaycan Konstitusiyasının 73-cü maddəsində təsbit olunmuş vergi ödəmək vəzifəsi dövlətin şərtsiz tələbi kimi bütün vergi ödəyicilərinə şamil olunur. Vergi ödəyicisinin bu vəzifəsində cəmiyyətin bütün üzvlərinin ictimai maraqları öz əksini tapmışdır. Buna görə də dövlət yalnız vergi ödəyicilərinin deyil, cəmiyyətin digər üzvlərinin də hüquq və qanuni mənafelərinin qorunması məqsədilə vergi-hüquq münasibətlərini tənzimləmək sahəsində qanuni tədbirlər görmək hüququna və vəzifəsinə malikdir.

Vergi Məcəlləsinin 53.1-ci maddəsinə görə, Məcəllə ilə müəyyən edilmiş vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə Vergi Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və digər qanunlar ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergiləri ödəməkdən yayınan şəxs qanunvericiliklə üzərinə vergiləri ödəmək vəzifəsi qoyulmuş subyekt, yəni vergi qanunvericiliyində anlayışı verilmiş fiziki şəxs və ya hüquqi şəxsin vergi öhdəliklərini faktiki yerinə yetirən şəxsi də ola bilər. Bu cinayətin subyektləri sırasına vergi və ya məcburi dövlət sosial sığorta haqları ödəyicisi olan fiziki şəxsləri, habelə hüquqi şəxslərin məsul işçilərini, yəni rəhbərini, baş mühasibini, eləcə də qanunvericiliklə və ya əmək müqaviləsi ilə mühasibat sənədlərinin tərtib edilməsi və rəsmiləşdirilməsi, müəssisənin əmlakının və maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsi həvalə edilmiş digər şəxslərini də aid etmək olar.

Konstitusiya Məhkəməsi tərəfindən faktiki rəhbərin əsas meyarları aşağıdakılar hesab olunmuşdur:

- məsul işçilərin hüquqi şəxsin maliyyə-təsərrüfat fəaliyyətinin, qanunvericilikdə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunun aparılmasına görə cavabdeh olması;
- qanunla müəyyən edilmiş vergilərin, habelə hesablanmış faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının və digər məcburi ödənişlərin ödənilməsinə görə cavabdeh olması;
- qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada vergi hesabatlarının vergi orqanlarına təqdim edilməsinə görə cavabdeh olması;
- vergi ödəyicisinin digər vəzifələrini üzərinə götürməklə onun adından sahibkarlıq fəailiyyətinin faktiki həyata keçirilməsinə görə cavabdeh olması;
- vergi əməliyyatları aparmaqla vergi ödəyicisinin fəaliyyətinə və vergi öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsinə görə cavabdeh olması.

Hüquqi şəxsin faktiki rəhbərinin Cinayət Məcəlləsinin 213-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi o halda mümkündür ki, həmin şəxs qanunla müəyyən edilmiş müddətdə vergitutmaya məruz qalan gəlirlər haqqında bəyannaməni təqdim etməmiş, bəyannaməyə vergilərin hesablanması üçün uçota alınmalı olan gəlirlər və ya xərclər barədə aşkar şəkildə təhrif olunmuş məlumatlar (verginin gizlədilməsi, azaldılması və ya ondan azad olunması məqsədilə) daxil edərək vergi orqanlarına təqdim etmiş və ya təqdim edilməsinə dair sərəncam vermiş olsun.

Belə ki, faktiki olaraq vergitutma obyektindən mənfəət əldə edən şəxs vergi ödəyicisi hesab olunur və Vergi Məcəlləsinin 78.3-cü maddəsinin mənasına görə vergi öhdəliklərinin yerinə yetirilməsi hüquqi şəxsin faktiki rəhbərinin üzərinə düşür. Hüquqi şəxsin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti nəticəsində faktiki gəlir əldə edən, onun aktivlərinə, pul vəsaitlərinə, əmlakına faktiki sərəncam verən şəxs vergitutma obyektləri üzrə qanunla müəyyən edilmiş vergilərin hesablanmasına və ödənilməsinə görə məsuliyyət daşımalıdır.

Plenumun qərarı ilə müəyyən edilmişdir ki, Vergi Məcəlləsinin 78.3-cü maddəsinin mənasına görə hüquqi şəxsin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti nəticəsində faktiki gəlirlər əldə edən, onun pul vəsaitinə, əmlakına faktiki sərəncam verən şəxs vergi ödəyicisi qismində vergi öhdəliklərini yerinə yetirən şəxs hesab edilir. Həmin şəxs Vergi Məcəlləsinin 78.4-cü maddəsinə əsasən vergi öhdəliklərinin yerinə yetirilməsini digər şəxsin üzərinə qoya bilməz və vergidən yayınma cinayəti törətdikdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilə bilər.

# BVF Azərbaycandakı iqtisadi islahatları yüksək dəyərləndirir

*Büdcə gəlirlərinin artımı, makroiqtisadi sabitliyin qorunub saxlanılması və enerji resurslarından asılılığın azaldılması istiqamətində qarşıya qoyduğu hədəflərə doğru irəliləyən Azərbaycanın əldə etdiyi uğurlu nəticələr nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən yüksək dəyərləndirilir.*




Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının rəhbəri Raca Almarzoqinin Bakıya səfərinin yekunlarına dair verdiyi açıqlamalar ölkəmizin davamlı inkişaf yolunda olduğunun daha bir əyani təsdiqidir.

Azərbaycanda makroiqtisadi vəziyyətin qənaətbəxş olduğunu deyən R.Almarzoqi qeyri-neft gəlirlərinin artırılması və qeyri-neft sektorunun davamlı inkişafı sahəsində ölkəmizin son illər əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib. Biznes mühitinin sağlamlaşdırılması istiqamətində həyata keçirilən tədbirləri xüsusi vurğulayan BVF təmsilçisi deyib ki, neft gəlirlərindən asılılığın azaldılması istiqamətində hökumətin həyata keçirdiyi tədbirlər müsbət nəticələrini göstərir. Bu il Azərbaycanda ümumi daxili məhsulun 5% artması fonunda inflyasiyanın 3%-dən aşağı olması da kifayət qədər yaxşı göstəricisidir: «2014-cü ildə qeyri-neft büdcə kəsirində planlaşdırılan azalma fiskal mövqeni davamlı səviyyəyə tərəf yönəldəcək və özəl sektorun fəaliyyəti üçün yaxşı imkanlar açacaq», - missiya rəhbəri qeyd edib.

Bu bəyanatı şərh edən iqtisadçı ekspertlər də 2014-cü ilin qeyri-neft sektorunun inkişafı baxımından həlledici il olacağını proqnozlaşdırırlar. Hesab edilir ki, respublikanın qarşıdakı il üçün dövlət büdcəsi ölkənin yeni iqtisadi doktrinasının əsasını qoyur. Dövlət büdcəsinin ən diqqətəlayiq uğurları sırasında Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) transfertlərin ciddi şəkildə azalması önə çəkilir. Belə ki, əvvəlki illərdən fərqli olaraq, gələn il Fondun diqqəti başlıca məqsədə - xərclərə qənaətə, gəlirlərin həcminin artırılmasına və ən əhəmiyyətli layihələrin maliyyələşdirilməsinə cəmlənəcək. Eyni zamanda, ARDNF-dən transfertlər infrastruktur, təhsil və s. kimi müxtəlif sahələrə investisiyalarla əvəz ediləcək. Bu baxımdan, gələn ilin dövlət büdcəsi özündə Azərbaycanın iqtisadi inkişafına, habelə qeyri-inflyasiya mənbələri hesabına büdcə kəsirinin maliyyələşdirilməsinə yeni konseptual yanaşmanı ehtiva edir.

ARDNF-dən transfertlərin azalması ölkənin gələcək iqtisadi artımında qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edə bilər. 2014-cü ilin dövlət büdcəsinə görə, gələn il ölkədə ÜDM-in artımının 5,2% təşkil edəcəyi gözlənilir. Xüsusən də qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının həcminin artırılması, ilk növbədə, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərin praktik reallaşdırılmasına xidmət edir. Ölkə iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə əlaqədar hökumət qarşısında qeyri-neft sektoru üzrə ümumi daxili məhsulun (ÜDM) iki dəfəyədək artırılması vəzifəsi qoyulub. 2020-ci ilədək ÜDM-in adambaşına düşən həcminin 13 min manata çatdırılması nəzərdə tutulur. 2015-ci ildə ölkədə ÜDM-in həcminin 59,4 milyard manat (5,8%), 2016-cı ildə 63,1 milyard manat (4,8%), 2017-ci ildə 67,3 milyard manat (6%) səviyyəsində proqnozlaşdırılır.

Ümumiyyətlə, 2014-cü ilin dövlət büdcəsində növbəti 3 il üçün ölkənin sosial-iqtisadi inkişafı üzrə proqnozlar müasir iqtisadi tendensiyalar nəzərə alınmaqla irəli sürülüb. Maliyyə Nazirliyinin hesablamalarına əsasən, 2014-2017-ci illərdə Azərbaycanda ümumi daxili məhsulda neft sektorunun payının 38,5%-dən 27,6%-ə düşəcəyi gözlənilir. 2015-ci ildə bu göstəricinin 32%, 2016-cı ildə 29% təşkil edəcəyi proqnozlaşdırılır. Paralel olaraq ÜDM-də iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisi 2014-cü ildəki 61,5%-dən 2017-ci ildə 72,4%-ə yüksəlməlidir. 2015-ci ildə ÜDM-də qeyri-neft sektorunun payının 68%, 2016-cı ildə 71% təşkil edəcəyi bildirilir.

2014-cü ildə qeyri-neft sektorunun 10% artacağı gözlənilir. Bununla əlaqələr gələn ilin dövlət büdcəsində gəlirlərin böyük hissəsinin Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi (DGK) hesabına təmin edilməsi nəzərdə tutulur: Vergilər Nazirliyinin xətti ilə büdcəyə 7,1 milyard manat, DGK xətti ilə isə 1,5 milyard manat məbləğin köçürülməsi planlaşdırılır.

BVF missiyasının rəhbəri Azərbaycanda makroiqtisadi vəziyyətin sabitliyindən danışarkən inflyasiyanın həcminin optimal həddə qorunub saxlanıldığını da xüsusi qeyd edib. Bildirilib ki, 2013-cü ildə ölkənin qeyri-neft sektorunun 10%-dən çox artımı, habelə investisiya və işgüzar mühitin yaxşılaşması şəraitində inflyasiyanın aşağı səviyyədə saxlanması yerli iqtisadiyyat üçün məqbul nəticədir. Ümumilikdə, son iki ildə inflyasiyanın təkrəqəmli olması ölkədə sabitliyin təmini və biznes fəaliyyəti baxımından mühüm əhəmiyyətə malikdir. Mərkəzi Bank təkcə 2013-cü ilin 9 ayında ölkənin valyuta bazarında manatın mümkün bahalaşmasının qarşısını almaq üçün 2 milyard dollar ekvivalentində xarici valyuta əldə edib. Pul kütləsinin artım tempi isə 7,3% səviyyəsində saxlanılıb. İlin sonunadək həmin göstəricinin 10% təşkil edəcəyi bildirilir ki, bu da antiinflyasiya tədbiri kimi mühüm əhəmiyyət daşıyacaq. Bütün bunların nəticəsi olaraq, Azərbaycan manatı hazırda regionun ən sabit və etibarlı valyutasına çevrilməkdədir.

BVF missiyasının rəhbəri bəyan edib ki, son illər Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması yeni bazarlara çıxış imkanlarını genişləndirir. Təşkilat bu məqsədlə ÜTT-yə üzvolma prosesinin sürətləndirilməsini, rəqabət mühitinin daha da sağlamlaşdırılmasını, idarəetmənin təkmilləşdirilməsini də tövsiyə edib. Bundan başqa, sahibkarlıq sahəsində yoxlamalarla əlaqədar yeni qanunun qəbulu da ölkənin qeyri-neft sektorunun inkişafı baxımından mühüm addım kimi dəyərləndirilib.

BVF-nin mövqeyinə görə, Azərbaycanın 2014-cü il üçün dövlət büdcəsinin strukturu, makroiqtisadi sabitliyin qorunması və biznes mühitinin yaxşılaşdırılması tədbirləri qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafına və ümumi daxili məhsulun artım prosesinə ciddi təkan verəcəkdir.

**Samir MUSTAFAYEV**

# Vergi orqanları və ödəyicilər arasında körpü

*Vergilər Nazirliyinin qarşıya qoyduğu başlıca hədəflərdən biri vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsidir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlığın yeni formalarının qurulması, ödəyicilərə göstərilən xidmətlərin yeni üsul və vasitələrinin tapılması, kreativ yanaşmaların tətbiqi diqqət mərkəzindədir. Bu istiqamətdə partnyorluq sazişinin imzalanması, eləcə də özəl vergi məsləhəti xidməti göstərən şəxslərlə əməkdaşlığın artırılması vergi ödəyiciləri ilə yaxşı və səmərəli əməkdaşlıq formatı kimi qəbul edilir.*

Özəl vergi xidməti məsləhətçisinin əsas fəaliyyəti vergi orqanı ilə ödəyicilər arasında körpü rolunu oynamaqdır. Bu xidmət vergilərin hesablanmasında və büdcəyə ödənilməsində ödəyicilərin işini sadələşdirməklə yanaşı, vergilərin büdcəyə vaxtında ödənilməsini də asanlaşdırır. Özəl vergi məsləhətçisi sahibkarların vergilərlə bağlı üzləşdiyi problemlərin həllində, vergilərin düzgün hesablanmasında vasitəçi və yardımçı olur. Hazırda ölkəmizdə özəl vergi məsləhətçiləri institutu formalaşma mərhələsindədir və bu sahədə 300-dən artıq şəxs, sahibkarların ictimai birlikləri fəaliyyət göstərir.

Özəl xidmətlərin yaranması zamanın tələbindən yaranıb. Bəzən sahibkarlar vergiləri düzgün hesablamaqda çətinlik çəkir, bəyannamələri səhv tərtib edir, vergi öhdəlikləri ilə bağlı texniki tələbləri yerinə yetirə bilmir və nəticədə maliyyə sanksiyaları ilə üzləşirlər. Bütün bunların əsas səbəbi onların vergilərin ödənişi ilə bağlı hələ də yetərincə iqtisadi və hüquqi biliklərinin olmamasıdır. Ona görə də dövlət xidməti ilə yanaşı, özəl vergi məsləhəti xidmətinə də müraciət etmək lazım gəlir. İqtisadi Maarifçılık Mərkəzinin əməkdaşı Ziya Qurbanlının sözlərinə görə, özəl vergi məsləhətçiləri mühasibat işlərinin aparılması, bəyannamələrin doldurulması və təqdim edilməsi, vergi qanunvericiliyinə riayət edilməsi və digər məsələlərdə vergi ödəyicilərinə yardım göstərirlər.

«Servis» MMC-nin əməkdaşı Fariz Salmanov isə qeyd edir ki, ölkədə sahibkarlıq subyektlərinin sayının artması və vergi sistemində tətbiq olunan yeni xidmətlər barədə ödəyicilərin maarifləndirilməsi böyük əhəmiyyət daşıyır. Vergi orqanları tərəfindən aparılan sistemli maarifləndirici və izahat xarakterli tədbirlərdə yaxından iştirak edən sahibkarların ictimai birlikləri, özəl vergi məsləhəti xidməti qurumları bu işdə vergi orqanlarına dəstək olmağa, onlara kömək göstərməyə çalışırlar. Sahibkarlara iqtisadi və vergi qanunvericiliyində baş verən dəyişikliklərdən irəli gələn məsələlərin həllində köməyə ehtiyac olduğunu deyən mütəxəssis təmsil etdiyi qurumun bu sahədə hüquqi-iqtisadi bilgilər, məsləhətlər verdiyini bildirir.



Bu sahədə böyük təcrübəsi olan Elzadə Süleymanova hazırda «Vergi partnyorluğu Sazişi»nin forması və «Vergi partnyorluğu Sazişinin bağlanması Qaydaları», həmçinin «Vergi partnyorluğu Sazişinin bağlanması üçün Ərizə» forması barədə ödəyicilərə əyani şəkildə məlumatlar və müvafiq izahatlar verdiklərini bildirir.

Metronun «Xalqlar dostluğu» stansiyasının yaxınlığında yerləşən audit və konsaltinq şirkəti kimi qeydiyyatdan keçən «New Sphera» şirkəti iqtisadi-hüquqi biliklərin yayılması, eləcə də vergi məsləhətlərinin göstərilməsi ilə məşğuldur. Şirkətin əməkdaşı Əlövsət Əliyevin dediyinə görə, ən çox əməkdaşlıq etdiyi şəxslər vergi ödəyiciləridir. Yaxınlıqda yerləşən sahibkarlıq obyektlərinin üzvləri onlara daha çox müraciət edir. Şirkət ödəyicilərə vergi sistemində baş verən yeniliklər, xüsusilə də elektron xidmətlər barədə lazımi izahatlar verir, hüquqi yardım edir, yeni xidmətlərdən istifadə qaydalarını başa salır. Mütəxəssis bildirir ki, son aylarda vergi bəyannamələrinin vaxtında təqdim edilməsi, vergilərin müəyyən olunmuş müddətlərdə ödənilməsi, nağdsız hesablaşmaların üstünlükləri, POS-terminallardan istifadə, vergi və rüsumların elektron formada ödənilməsi qaydaları, işçilərlə əmək müqavilələrinin bağlanması sahəsində geniş təbliğat və izahat işləri aparılıb.

Maraqlı haldır ki, bölgələrdə də vergi məsləhəti xidmətlərinin sayı artıb. Gəncədə fəaliyyət göstərən ictimai təşkilatın nümayəndəsi Azər Qəmbərov sahibkarlara müxtəlif iqtisadi mövzular - maliyyə, sığorta, bank, vergi, gömrüklə bağlı hüquqi yardım göstərdiklərini bildirir. Vergi xidmətləri regionlarda daha çox internet-klubların cəmləşdiyi ərazilərdə həyata keçirilir. Eyni zamanda hüquqi yardım mərkəzləri ilə birgə müraciət edən sahibkarlara vergi məsləhətləri verilir.

Azərbaycanın daim yeniləşən vergi sistemi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi haqqında lazımi məlumatların, təbliğat xarakterli materialların yayılmasında ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərin də işi diqqət çəkir. «Deloitte», Ernst & Young» şirkətləri xarici biznes strukturlarına respublikamızın vergi sistemində baş verən yeniliklər barədə məlumat verir, vergi məsləhəti xidməti göstərirlər. Məsələn, «Deloitte» müştərilərinə özəl və dövlət kapitalının cəlb edilməsi, əmək qanunvericiliyi, audit, maliyyə yoxlamaları, biznes risklərinin idarə olunması, biznes planlar və müxtəlif hesabatların hazırlanmasında təkliflərin təqdim edilməsi ilə yanaşı, vergiyə dair hüquqi biliklərin aşılanması ilə məşğuldur. Şirkətin əsas fəaliyyət sahəsinə daxil olan vergi və hüquq məsləhətləri üzrə xidmətlər son illər daha da genişlənib.

**Elbrus CƏFƏRLİ**

# Nağdsız ödənişlərin təşviqi üçün müxtəlif kampaniyalar keçirilir

## Ölkədəki kommersiya bankları bu sahədə fəallığı artırıblar

*Azərbaycanda nağdsız dövriyyənin genişləndirilməsi, əhalinin plastik kartlardan istifadə imkanlarının artırılması istiqamətində həyata keçirilən həvəsləndirici tədbirlərdə kommersiya bankları da yaxından iştirak edirlər. Nağdsız ödənişlərə marağı artırmağa çalışan bank sektoru il boyu bir sıra maraqlı kampaniyalar təşkil ediblər.*

Belə kampaniyaların təşkili, əslində, nağdsız ödənişlərin genişləndirilməsinə çalışan Azərbaycan Mərkəzi Bankı tərəfindən (AMB) də təşviq edilir. AMB hələ bu ilin əvvəlində ölkədə nağdsız dövriyyənin həcminin artırılması üçün banklar arasında mükafatlar elan edib. Beynəlxalq təcrübə əsasında bankların mükafatlandırılması üçün nağdsız ödənişlər sahəsində müxtəlif müsabiqələr keçirilib. Müsabiqənin nəticəsi kimi bir sıra banklar «Nağdsız ödənişlər üzrə lider bank» və «Elektron bankçılıq xidmətlərində lider bank» nominasiyaları üzrə qalib elan olunublar. Bu zaman bank kartı ilə edilmiş nağdsız əməliyyatların sayı əsas şərtlərdən biri kimi nəzərə alınıb.

AMB-nin tövsiyəsinə uyğun olaraq, hazırda ölkənin kommersiya bankları stimullaşdırıcı kampaniyaları davam etdirirlər. Məsələn, «AccessBank»ın 2013-cü il oktyabrın 1-dən həyata keçirdiyi «AccessQazanc» layihəsi vətəndaşlarda maraq doğurub. Bankın plastik kartlarının sahibləri layihəyə qoşulmuş ticarət obyektlərində nağdsız ödəniş həyata keçirərkən ödədikləri məbləğin 17%-dək hissəsini geri ala bilirlər.

Bankdan bildirildiyinə görə, «AccessQazanc» - bank kartı ilə ödənilən malın dəyərinin bir qisminin geri qaytarılmasını nəzərdə tutan yeni xidmətdir. Kampaniya çərçivəsində mala və ya xidmətə görə ödənilən məbləğin müəyyən hissəsi müştərinin kart hesabına geri qaytarılır. Qaytarılan məbləğ ödəniş edən zaman müştərilərə təqdim olunan çeklərin üzərində göstərilir. Müştərilər bu xidmətdən müxtəlif marketlərdə, restoranlarda, eləcə də geyim, ayaqqabı, məişət texnikası, mobil telefon mağazalarında, tibbi mərkəzlərdə və xidmət sahələrində istifadə edə bilərlər. Qaytarılan vəsait daha sonra istənilən qaydada istifadə oluna, o cümlədən bankomatlardan nağd şəkildə çıxarıla bilər. Bankın bütün plastik kart sahibləri bu proqrama qoşulan təşkilatların xidmətlərindən istifadə edərkən qazanc əldə edirlər.




Əhalinin nağdsız ödənişlərə həvəsləndirilməsində «Ata-Bank» da yaxından iştirak edir. Bankın «Nağdsız ödə, nağd qazan» ani stimullaşdırıcı lotereya kampaniyası müddətində 20 mindən çox lotoreya bileti paylanılıb, müştərilər 36 min manata yaxın pul mükafatı qazanıblar. Kampaniyanın 31 dekabr 2013-ci il tarixinədək davam etdirilməsi nəzərdə tutulur. Lotereyada «Ata-Bank» ASC tərəfindən ticarət, ictimai-iaşə və ya xidmət obyektlərində quraşdırılmış POS-terminallar vasitəsilə nağdsız əməliyyatlar aparan fiziki şəxslər iştirak edə bilərlər. Təqvim ayı ərzində ümumilikdə 20 manat məbləğində əməliyyatlar aparan kart istifadəçiləri ani stimullaşdırıcı lotereya əldə etmək hüququ qazanırlar. Bankın kampaniyanı keçirməkdə məqsədi ölkədə nağdsız ödənişlərin stimullaşdırılması sahəsində aparılan tədbirləri sürətləndirməkdir. Hazırda «Ata-Bank»ın POS-terminallarının sayı 10 minə yaxındır.

«DəmirBank» isə hazırda müştərilərinə mobil danışıq dəqiqələri qazandıran «MobilKart plastik» kartlarını təqdim edir. «Mobilkart» ilə əməliyyat edən müştərilərin telefon nömrələrinə kartla edilmiş dövriyyənin 0,4%-i həcmində danışıq dəqiqələri köçürülür. Bu kartdan Azərbaycanda istənilən mobil rabitə operatorunun xidmətlərindən istifadə edən müştərilər yararlana bilirlər.

Vətəndaşların nağdsız ödənişlərə həvəsləndirilməsi baxımından bankların hissələrlə ödəmə (taksit kartları) kartları mühüm rol oynayır. İlk dəfə bu xidməti 2 il öncə təklif etmiş «Bank of Baku»nun müştərilərinin sayı hazırda 150 min nəfərə çatıb. Bu ilin əvvəlindən «bolkart» istifadəçilərinin sayının 60 mindən 150 min nəfərə yüksəlməsi əhalinin hissələrlə ödəmələrə böyük marağını nümayiş etdirir. «Bolkart»ın əsas üstünlüyü alınan malın dəyərinin 1, 3, 6 və ya 12 aya bərabər hissələrə bölünməsi və ödənilməsi imkanından ibarətdir. Bundan başqa, «MasterCard» loqolu «bolkart» ilə dünyanın istənilən ölkəsində birbaşa və onlayn alış-veriş etmək mümkündür. Taksitlə ödəmə kartlarından ölkənin çoxsaylı ticarət, iaşə və xidmət obyektlərində istifadə etmək mümkündür.

2013-cü il oktyabrın 1-dən «KapitalBank» da yeni həvəsləndirici kampaniyaya start verib. «Ödəmələr hədiyyəli, hər ay qazan bir 50-i!» devizi altında keçirilən kampaniya 1 yanvar 2014-cü ilə qədər davam edəcək. Məqsəd «KapitalBank»ın təklif etdiyi müxtəlif növ «VISA» kartları vasitəsilə nağdsız ödənişləri stimullaşdırmaqdır. Bankın VISA kartları ilə Azərbaycan ərazisində nağdsız ödəniş aparan bütün fiziki şəxslər bu kampaniyaya qatıla bilər. Azərbaycan ərazisindəki ticarət və iaşə obyektlərində, yaxud elektron ticarət şəbəkəsində «KapitalBank»ın VISA ödəniş kartları vasitəsilə minimum 50 manatlıq ödəniş edən hər bir müştəri avtomatik şəkildə lotereyanın iştirakçısı sayılır.

AMB hesab edir ki, keçirilən belə kampaniyalar yaxın illərdə ölkədə nağdsız dövriyyənin həcminə və strukturuna əhəmiyyətli dərəcədə təsir göstərəcək.

**S.MUSTAFAYEV**

# Sosial ipoteka strategiyası hazırlanır

*Ölkəmizdə ailələrin mənzilə olan tələbatının ödənilməsində 2006-cı ildən başlayaraq ipoteka kreditləri tətbiq edilməyə başlanıb. Lakin əksər ailələr üçün bu kreditləri almaq hələ də mümkünsüzdür. Çünki həmin kreditlərin alınması üçün tələb edilən şərtlərin yüksək olması əksər vətəndaşların imkanı xaricindədir. Buna görə də ekspertlər ipoteka kreditləşməsinə əlçatanlığın artırılması üçün ipoteka bazarının həcminin genişləndirilməsini vacib hesab edirlər.*

### İpotekaya ayrılan vəsait tələbatı ödəmir

İpoteka kreditlərinin verilməsi məsələsi həm Azərbaycan hökumətinin, həm də Mərkəzi Bankın diqqət mərkəzindədir. Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov Milli Məclisin 2014-cü ilin dövlət büdcəsi ilə bağlı müzakirələrində bildirmişdir ki, Avropa ilə müqayisədə ölkəmizdə ipoteka kreditlərinin verilməsi prosesinə yeni başlanılıb və məsələnin qısa vaxt ərzində həll olunması mümkün deyil. O, ipoteka kreditləri üçün ayrılan vəsaitlərin artırılması istəyinə də münasibət bildirərək qeyd etmişdir ki, bu, bazar iqtisadiyyatına uyğun deyil. İpotekanın mühüm göstəricilərindən birinin ucuz mənzillərin tikilməsi olduğunu deyən bank sədri bunun iki yolu olduğunu diqqətə çatdırmışdır: «Mənzilləri ya dövlət tikə bilər, ya da dövlət xüsusi bölməni stimullaşdıra bilər. Burada bir çox dövlətlərin təcrübəsindən istifadə olunur. Hökumətlə birlikdə bu təcrübələri öyrənirik. Xüsusi bölmə üçün şərait yaratmaq lazımdır ki, onlar da ipoteka kreditləri verməkdə maraqlı olsunlar. Banklara uzun müddətə qoyulmuş pullar lazımdır ki, ipoteka kreditləri 20-25 illiyə verilə bilsin. Biz də həmin pulların mənbələrini axtarırıq. Sosial ipoteka üçün ayrılan dövlət yardımı tələbatı ödəmir. Bununla bağlı Maliyyə Nazirliyi ilə danışıqlar gedir.



Əhalinin öz yığımları hesabına ipoteka kreditləri alması məsələsini də düşünürük. Yaxın vaxtlarda bu sahədə müvafiq strategiyanın müzakirəsinə başlayacağıq».

### Kredit alanların böyük əksəriyyəti gənc ailələrdir

Ölkədə ipoteka kreditlərinin verilməsi Azərbaycan İpoteka Fondunun xətti ilə həyata keçirilir. Hazırda ipoteka kreditlərinin verilməsi şərtləri adi ipoteka kreditləri üçün 50 min manat, maksimal illik faiz dərəcəsi 8%, maksimal müddət isə 25 ildir. Adi ipoteka kreditləri üçün ilkin ödəniş 20%-dir. «Azərbaycan Respublikasında güzəştli ipoteka kreditlərinin verilməsi Qaydaları»nda edilən dəyişikliklərdən sonra bu kreditlərin maksimal məbləği 35 min manatdan 50 min manatadək artırılmışdır. Maksimal illik faiz dərəcəsi 4%-lə, maksimal müddət isə 30 il ərzində, illik ödəniş 15%-lə verilir.

Bu ilin əvvəlindən Azərbaycan İpoteka Fondu vasitəsilə kredit təşkilatları tərəfindən 2000-dən çox şəxsə ümumilikdə 80 milyon manat məbləğində ipoteka krediti ayrılıb. Fondun kredit portfeli 512 milyon manatı keçib. İpoteka krediti alanların sayı isə 13 min nəfərdən artıqdır. İpoteka krediti alanların 70%-ni gənclər və gənc ailələr təşkil edir.

Qeyd edək ki, ipoteka kreditinin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 80%-dən, ipoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın aylıq məcmu gəlirinin 70%-dən çox, kreditin son ödəniş tarixinə borcalanın yaşı isə qanunvericiliklə müəyyən olunmuş pensiya yaş həddindən çox olmamalıdır.

İqtisadçı ekspertlərin rəyinə görə, ipoteka bazarının inkişafı və daha çox ailənin bu kreditləri ala bilməsi üçün tikinti zəmanət banklarının yaradılması zəruridir. Bu, əhalinin ilkin ödəniş məsələsini həll etməsinə imkan yarada bilər.

**AYTƏN**

# Bələdiyyələrin səlahiyyətləri tədricən artırılacaq

***Azərbaycanda bələdiyyə fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsində qurulması məsələsi illərdir problem olaraq qalmaqdadır. Yerli özünüidarəetmə orqanlarının işinin təşkili üçün hökumət tərəfindən onlara bir sıra imtiyazlar verilsə də, hələlik bu imkanlar maksimum səviyyədə gerçəkləşdirilmir.***

### Vergilər Nazirliyi bələdiyyələrə yerli vergilərin toplanması ilə bağlı metodiki köməyi davam etdirir

Öz büdcələrini formalaşdırmaq üçün bələdiyyələrə bir sıra vergilərin toplanması səlahiyyətləri verilmişdir. Bu gün bələdiyyələrin Vergi Məcəlləsi ilə müəyyən edilmiş və bələdiyyə büdcəsinə ödənilən aşağıdakı vergiləri yığmaq səlahiyyətləri vardır:

- Fiziki şəxslərin torpaq vergisi;
- Fiziki şəxslərin əmlak vergisi;
- Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Bələdiyyə vergilərinin dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Ancaq təəssüflər olsun ki, bələdiyyələr bu vergilərin toplanmasında uğur əldə edə bilmirlər.

Xatırladaq ki «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2002-ci il tarixli fərmanına əsasən qeyd olunan məsələ ilə bağlı metodiki rəhbərlik Vergilər Nazirliyinə həvalə edilmişdir.

Fərmana uyğun olaraq həyata keçirilən tədbirlərin başlıça məqsədi yerli vergilər və ödənişlər haqqında qanunvericiliyin tətbiqində ortaya cıxan çətinliklərin və anlaşılmazlıqların aradan qaldırılmasıdır. Bu məqsədlə bələdiyyə üzvləri, bələdiyyələrin vergi orqanı əməkdaşları ilə mütəmadi görüşlər təşkil edilir, yerli vergilərin toplanmasında mövcud problemlərin müzakirəsi aparılır, onların həllinin metodiki aspektləri nəzərdən keçirilir. Bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, eləcə də vergi qanunvericiliyinə dəqiq riayət olunmasında kömək göstərilməsi məqsədilə müvafiq izahatlar və təlimatlar verilir.

### Bəzi vergilərin və ya xidmət haqlarının bələdiyyələr tərəfindən toplanması təklif olunur

Son vaxtlar bələdiyyələrə verilən səlahiyyətlərin artırılması təklifləri səslənməkdədir. Məsələn, Milli Məclisin deputatı Azay Quliyevin fikrincə, mənzil-kommunal təsərrüfatları təşkilatları həyata keçirməli olduğu öhdəliklərin öhdəsindən gələ bilmir. Bu təşkilatlar ləğv edilməli və onların həyata keçirdiyi işlər bələdiyyələrə həvalə olunmalıdır: «Bələdiyyələr müəyyən kommunal ödənişləri yığa və kommunal təsərrüfatların bəzi xidmətlərini həyata keçirə bilərlər. Bu da özlüyündə bələdiyyələrin səlahiyyətlərinin və gəlir mənbələrinin artmasına səbəb olar».

Bir cox ekspertlər isə yerli vergilərin yığımını təşkil edə bilməyən bələdiyyələrin qeyd olunan işin öhdəsindən gələ biləcəyinə şübhə ilə yanaşırlar.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin sədri Mehdi Səlimzadə isə yerli özünüidarəetmə orqanlarına hüquqi şəxslərdən bəzi vergi növlərinin toplanılması səlahiyyətinin verilməsi ilə bağlı təkliflərin irəli sürüldüyünü bildirib: «Bələdiyyələrin fəaliyyəti ilə bağlı illik məruzə təqdim olunanda inzibati nəzarətin təkmilləşdirilməsi, bələdiyyələrin işinin səmərəli təşkili ilə bağlı müvafiq təkliflər hazırlayırıq. Təkliflər sırasında bələdiyyələrə ödənilən vergilərin sayının artırılması, hüquqi şəxslərdən müxtəlif vergilərin tutulması, audutin təşkili ilə bağlı təkliflər və s. var idi». M.Səlimzadə onu da bildirib ki, yeni xidmət sahələrinin yaradılması ilə bağlı təcrübəsi olan bələdiyyələrin sayı çox azdır: «Bələdiyyələr büdcələrindən səmərəli istifadə edib əldə olunan gəlirdən yeni xidmət sahələri yaratmalıdırlar və əlavə gəlirlər əldə etməlidirlər. Təəssüf ki, bu təcrübəni tətbiq edən bələdiyyələrimiz azdır».

Mərkəz rəhbəri gələcəkdə ölkənin sosial-iqtisadi inkişafı fonunda kommunikasiya, infrastrukturla bağlı sahələrdə bəzi səlahiyyətlərin mərhələlərlə bələdiyyələrə verilməsini zəruri sayır: «Ancaq bu səlahiyyətlər o bələdiyyələrə verilməlidir ki, onlar bu işləri görmək iqtidarında olsunlar. Əgər bələdiyyələr bu işlərin öhdəsindən gələ bilməyəcəklərsə, onlara yeni səlahiyyətlərin verilməsi də əhəmiyyətsiz olacaq. Bələdiyyələrin səlahiyyətlərini kütləvi şəkildə artırmaqla istənilən nəticəni əldə etmək mümkün olmayacaq».

*Bələdiyyələr büdcələrindən səmərəli istifadə edib əldə olunan gəlirdən yeni xidmət sahələri yaratmalıdırlar və əlavə gəlirlər əldə etməlidirlər*

### Böyük şəhər bələdiyyələri yaratmaq üçün təcrübəyə ehtiyac var

Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayev bələdiyyələrə birdən-birə daha geniş səlahiyyətin verilməsinin doğru olmadığını bildirib: «Bir çox ölkələrdə, o cümlədən Türkiyədə böyük şəhər bələdiyyələri yaradılıb. Artıq Azərbaycanda da bir neçə ildir ki, bununla bağlı müxtəlif fikirlər səslənir. Ancaq böyük bələdiyyələrin yaranması üçün müəyyən vaxt lazımdır. Əvvəla, bunun üçün bələdiyyələrin maddi-texniki bazası, kadr potensialı olmadır. Bu bələdiyyələr idarəetmə və müəyyən iş təcrübəsinə malik olmalıdırlar. İlk bələdiyyə seçkilərindən sonra mütəxəssislər və xarici ekspertlər bələdiyyələrin çox olması ilə bağlı açıqlama vermişdilər. Hətta uzun müddət bələdiyyələrin birləşməsi ilə bağlı məsələ də müzakirə olunmuşdu. Ancaq bu məsələ müəyyən vaxtdan, demək olar ki, 8-9 ildən sonra öz həllini tapdı. Bu proses hələ də davam edir. Hazırda xırda və maliyyə cəhətdən çox zəif, mülkiyyəti olmayan bələdiyyələr fəaliyyət göstərirlər. Bələdiyyələr formalaşdıqdan və təkmilləşdikdən sonra qaldırılan məsələlərə baxmaq olar».

Milli Məclisin Regional məsələlər komitəsinin sədri, millət vəkili Arif Rəhimzadə bildirib ki, «Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında» qanun layihəsi Milli Məclisin regional komitəsində, parlamentin plenar iclasında müzakirə olunub. Mövcud zərurətdən yaranmış yerli özünüidarəetmə institutunun səlahiyyətlərinin artırılması prosesində xarici ekspertlər də iştirak edirlər. Qanun layihəsində bələdiyyələrin işinin, eləcə də bələdiyyələrin fəaliyyətinə nəzarətin effektivliyinin təşkili məqsədilə vergi sisteminin təkmilləşdirilməsi, bələdiyyələrə ödənilən vergilərin sayının artırılması, audit araşdırmasında xidmət haqqı və digər məsələlərin əksini tapması təklif olunur. Ancaq bu işlərin mərhələli şəkildə həyata keçirilməsi daha məqsədəuyğun olardı. Bələdiyyə institutunun həmin səlahiyyətləri və məsuliyyəti üzərinə götürməsi üçün hazırlıqlı olması vacibdir».

**Rəşad SADIQOV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# MHBS və MMUS-lara uyğun maliyyə hesabatlarını hazırlayan müəssisələrdə tətbiq olunan uçotun aparılması qaydaları və onun auditi

**Əvvəli ötən sayımızda**

Bunlar aşağıdakı mərhələlərdən və məqsədlərdən ibarətdir:

*1. Mühasibat qeydləri üçün əməliyyatları və faktları müəyyən etmək.* Məqsəd: əməliyyat və faktları əks etdirən sənədlər əsasında informasiyaların toplanmasıdır.

*2. Əməliyyat jurnalında ikili yazılışların və əməliyyatların (baş vermiş faktların məzmununun) əks etdirilməsi (qeydi).* Məqsəd: əməliyyatların müəssisəyə iqtisadi təsirini təsvir, təhlil və müəyyən etməkdir.

*3. Əməliyyat jurnalından Baş kitaba qeydlərin köçürülməsi.* Məqsəd: informasiyaları əməliyyat jurnalından baş kitaba köçürməklə informasiyaların müvafiq hesablarda saxlanılmasını təmin etmək və hər bir hesab daxilində baş verən əməliyyatlar üzrə hərəkəti ümumi şəkildə görməkdir.

*4. Sınaq balansın hazırlanması.* Məqsəd: hesabların son qalıqlarının debet və kredit üzrə bərabərliyinin yoxlanılmasını asanlaşdıran siyahı tərtib etməkdir.

*5. Düzəliş olanmalı qeydlərin əməliyyat jurnalında əks etdirilməsi.* Məqsəd: tez-tez və ya adətən ilkin sənədlərdə görünməyən əməliyyatların, hesablaşmaların, yenidən qiymətləndirmələrin, itkilərin, çatışmazlıqların, əvəzləmələrin və digər faktların qeydiyyatıdır.

*6. Düzəliş olunmuş (tam dəqiqləşdirilmiş) sınaq balansının hazırlanması.* Məqsəd: hesabların son qalıqlarının debet və kredit üzrə bərabərliyini yoxlamaq və maliyyə hesabatlarının hazırlanmasını asanlaşdırmaqdır (sadələşdirməkdir).

*7. Maliyyə hesabatlarının hazırlanması.* Məqsəd: iqtisadi qərarların verilməsi üçün maliyyə informasiyalarının kənar istifadəçilərə ötürülməsidir.

*8. Baş kitabda hesabların bağlanmasının əks etdirilməsi.* Məqsəd: müvəqqəti (dövrün sonunda bağlanması zəruri olan) hesabların bağlanması və bunun nəticəsində müəyyənləşdirilən xalis mənfəətin bölüşdürülməmiş mənfəət hesabına köçürülməsidir.

*9. Hesabların bağlanmasından sonra ilin sonuna yekun sınaq balansının hazırlanması.* Məqsəd: köməkçi hesablar bağlandıqdan sonra qalan hesabların son qalıqlarının debet və kredit üzrə bərabərliyinin yoxlanılmasıdır.

*10. Növbəti il üçün nəzərdə tutulan yeni baş kitabda hesablar üzrə qalıqları əks etdirmək.* Məqsəd: növbəti hesabat ilinə hazırlıqdır.

Yuxarıda göstərilən uçot prosedurlarından göründüyü kimi, müəssisələrdə «əməliyyat jurnalı», «baş kitab», «sınaq balansı», «düzəliş olunmuş sınaq balansı» kimi qruplaşdırıcı cədvəl formalarının (jurnal və kitabların) hazırlanması tövsiyə olunur. Bu jurnalların (kitabların) forma və tərtib olunma qaydası ənənəvi uçotda tərtib edilən jurnal və kitablardan fərqlənir, lakin bu, köklü xarakter daşımır, sadəcə olaraq əməliyyatların uçotu maliyyə hesabatlarının tərtib olunma və hesabatlara baxış tərzindən asılı olaraq müxtəlif kombinasiyalara məruz qalır. Məsələn, köhnə uçotda «memorial order» yeni uçotda «əməliyyat jurnalı»na uyğun gəlir. Lakin əməliyyatların uçota alınma modeli (texnikası) fərqlidir. Əməliyyat jurnalı daha anlaşıqlıdır, bir hesab daxilində informasiyanı operativ izləmək olur, qısası, əməliyyatlar tam başa düşülən və nəzarət olunan hala gətirilir.

Audit zamanı müəssisə rəhbərliyi düzgünlüyünün yoxlanması məqsədilə beynəlxalq standartların tələblərinə cavab verən tərzdə hazırladığı maliyyə hesabatlarını auditora təqdim edərsə, müəssisənin mühasibat uçotunda uçot proseslərinə yuxarıda göstərilən prosedurlar üzrə əməl olunması da araşdırılmalıdır. Ola bilsin ki, müəssisənin mühasibat uçotunun aparılmasında tətbiq edilən mühasibat proqramı uçotun yuxarıda göstərilən prosedurlarına əməl olunmasına və əməliyyatların uçotda əks etdirilməsi qaydalarına cavab verməsin. Belə halda, auditor tərəfindən proqramın uyğun formada dəyişdirilməsi təklif olunmalıdır. Müəssisə rəhbərliyinə (idarəedicilərinə) köhnə mühasibat proqramlarının keyfiyyətsizliyi və səmərəsizliyi barədə məlumat verilməli və daha modern proqramlardan istifadə edilməsi təbliğ olunmalıdır.

Mühasibat sahəsində bir neçə il praktik təcrübəsi olan və köhnə qaydalarla balans hazırlamağı bacaran mühasiblər əmin olmalıdırlar ki, yuxarıda göstərilən uçot prosedurlarında göstərilən «əməliyyat jurnalı», «baş kitab», «sınaq balansı», «düzəliş olunmuş sınaq balansı» kimi qruplaşdırıcı jurnal və kitabları hazırlamaqda və mərhələlər üzrə göstərilən şərtlərə əməl olunmasında heç bir çətinliyi olmayacaqdır. Bütün bunlara nail olmaq üçün auditorların xidmətlərindən istifadə etmək olar.

# Bank və kassa əməliyyatlarının uçota alınması üzrə tövsiyə olunan ikili yazılış texnikası

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Kassanın krediti üzrə əməliyyatları daha mükəmməl bilmək üçün verilən (məxaric edilən) pulun hansı istiqamətlərə yönəldilə biləcəyi barədə bilgilərə malik olmaq lazımdır. Mühasib «pul əsasən (adətən) hara, kimə verilə bilər» sualının cavabını əvvəlcədən bilməlidir ki, faktiki çıxan vəsaitin istiqamətini, yəni əməliyyatın debet təyinatını tez təyin etsin. Mühasibin bacarığı əməliyyat barədə ikili yazılışı tez zamanda (məsələn, 1 və ya bir neçə saniyə ərzində) müəyyənləşdirməsidir. Ona görə də mühasib pul vəsaitlərinin gedən ümumi istiqamətlərini bilməlidir. Sonra isə istiqamətin hesablar planında hansı hesabda əks etdirildiyini və ya hansı bölmədə axtarmalı olduğunu bilməlidir ki, standartın tələblərinə uyğun hərəkət etsin.

Pulun məxarici üzrə ikili yazılışların verilməsini asanlaşdırmaq üçün aşağıdakı izahlara diqqət yetirək.

***I. İlk növbətə yadda saxlamaq lazımdır ki, köklü olaraq pul məxarici axını (pulların çıxışı) aşağıdakı istiqamətlərə yönələ bilər:***

1-ci. Bizim borclu (bizim pul verməli) olduğumuz şəxslərə (kreditor borclar və alınmış borclar);

2-ci. Əvəzsiz pul (yardım) vermək istədiyimiz şəxslərə (sair əməliyyat xərcləri);

3-cü. Borc pul vermək istədiyimiz şəxslərə (faiz gəlirləri yaradan borclar);

4-cü. Pulun yerdəyişməsi kimi bizim digər pul hesabımıza;

5-ci. Dividend şəklində mənfəətin bölüşdürülməsi və ya payın əvəzinin verilməsi kimi təsisçilərə, səhmdarlara.

*1-ci istiqamətin izahı.* Bizim borclu (pul verməli) olduğumuz şəxslər aşağıdakına əsasən «qısamüddətli və ya uzunmüddətli kreditor borcumuz olanlardır», hansı ki, bizim onlara borclu qalma ehtimallarımız yaranır və ya daim (tez-tez) yarana bilər:

- Bizə mal, material, avadanlıq və digər əşyalar satan malsatanlar;
- Bizə xidmətlər göstərən icraçı şəxslər;
- Bizə iş görən icraçı şəxslər (podratçılar);
- Bizim yuxarıda göstərilməyən sair hadisələrə görə pul (dövlət icbari ödənişləri, cərimə, faiz) verməli olduğumuz şəxslər;
- Bizə borc pul verən şəxslər;
- Mal (iş, xidmət) almaq üçün əvvəlcədən avans vermək istədiyimiz şəxslər.

Göründüyü kimi, bu istiqamət üzrə bizdən çıxan pulların hamısı müxtəlif adlarla ifadə olunan kreditor borclu statusundakı hüquqi və fiziki şəxslərlə əlaqəlidir. Bu şəxslərə yaranan kreditor borclarını hesablar planı üzrə aşağıdakı hesablarda görə bilərik və pul vəsaitlərinin krediti müəssisənin fəaliyyəti boyu ən çox hallarda aşağıdakı hesabların debeti ilə müxabirləşir:

| | |
|---|---|
| **Uzunmüddətli kreditor borcları** | |
| 431 | Malsatanlara və podratçılara uzunmüddətli kreditor borcları |
| 432 | Törəmə (asılı) müəssisələrə uzunmüddətli kreditor borcları |
| 433 | Əməyin ödənişi üzrə işçi heyətə uzunmüddətli kreditor borcları |
| 434 | Tikinti müqavilələri üzrə uzunmüddətli kreditor borcları |
| 435 | Faizlər üzrə uzunmüddətli kreditor borcları |
| 436 | Digər uzunmüddətli kreditor borcları |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | |
| 521 | Vergi öhdəlikləri |
| 522 | Sosial sığorta və təminatlar üzrə öhdəliklər |
| 523 | Digər məcburi ödənişlər |
| **Qısamüddətli kreditor borcları** | |
| 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları |
| 532 | Törəmə (asılı) müəssisələrə qısamüddətli kreditor borcları |
| 533 | Əməyin ödənişi üzrə işçi heyətə qısamüddətli kreditor borcları |
| 535 | Lizinq ödənişləri üzrə qısamüddətli kreditor borcları |
| 536 | Tikinti müqavilələri üzrə qısamüddətli kreditor borcları |
| 537 | Faizlər üzrə qısamüddətli kreditor borcları |
| 538 | Digər qısamüddətli kreditor borcları |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| 401 | Uzunmüddətli bank kreditləri |
| 404 | Uzunmüddətli borclar |
| 406 | Uzunmüddətli lizinq öhdəlikləri |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| 501 | Qısamüddətli bank kreditləri |
| 504 | Qısamüddətli borclar |

Pul hesablarının krediti Hesablar Planının 41, 44 və 54-cü maddələrində verilən hesabların, həmçinin 40 və 50-ci maddələrin adları yuxarıda çəkilməyən hesablarının debeti ilə də müxabirləşir. Lakin bu maddələrdə verilən hesablar üzrə əməliyyatlar praktikada və ya müəssisənin fəaliyyəti dövründə çox az hallarda baş verir.

**Davamı növbəti sayımızda**

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 noyabr - «5», «(5)» və «6».
20 noyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi

Bu xidmət fərdi sahibkar qismində uçota alınmış fiziki şəxslərin uçot məlumatlarının elektron qaydada dəyişdirilməsini əhatə edir. Xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış fərdi sahibkarlar www.e-taxes.gov.az, www.e-gov.az elektron ünvanlarına daxil olaraq istifadə edə bilərlər. Xidmətin göstərilməsi üçün heç bir ödəniş tələb olunmur.

Bu xidmət üçün fiziki şəxsin uçot məlumatlarında dəyişikliklərin edilməsi barədə ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə fərdi sahibkar tərəfindən sistemə daxil edilir. İnteraktiv xidmətlərin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş günündə həyata keçirilir.

Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi barədə ərizə İnternet Vergi İdarəsi portalının «Onlayn Kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə:

➔ *«Kimə»* siyahısından - Vergilər Nazirliyi;
➔ *«Müraciətin növü»* siyahısından - Ərizə;
➔ *«Sənədin növü»* siyahısından - fiziki şəxsin məlumat dəyişikliyi ərizəsi seçilir və «Qəbul» düyməsi sıxılır.

Açılan ekranda fiziki şəxslərin əlaqə məlumatları və fəaliyyət növləri üzrə məlumat dəyişikliyi həyata keçirilir. Əlaqə məlumatlarının sistemə daxil edilməsi üçün ekranın uyğun hissəsində «Əlavə et» düyməsi sıxılır. Bu halda siyahının əvvəlinə yeni boş sətir əlavə olunur. «Növü» sütununda siyahıdan əlaqə məlumatının növü seçilir. Siyahıdan ərazinin və ya mobil operatorun telefon kodu seçilir. Növbəti sütunda seçilmiş növə uyğun olaraq telefon nömrəsi və ya elektron ünvan barədə məlumat sistemə daxil edilir.

Məlumat bazasına istənilən sayda telefon nömrəsi və elektron ünvan barədə məlumat daxil etmək mümkündür.

Fəaliyyət növünün sistemə daxil edilməsi üçün ekranın uyğun hissəsində «Əlavə et» düyməsi sıxılır. Bu halda siyahının əvvəlinə yeni boş sətir əlavə olunur. «Kodu» sütununda fəaliyyət növünün kodu sistemə daxil edilir. Sistem tərəfindən uyğun fəaliyyət növünün adı ekrana çıxarılır. Səhv fəaliyyət kodunun sistemə daxil edilməsinə icazə verilmir.

Məlumatın silinməsi isə həm əlaqə məlumatları, həm də fəaliyyət növlərində eyni qayda ilə silinir. Bu məqsədlə hər iki halda «Seçim» qrafasında uyğun sətrin qarşısına işarə qoyulur və «Seçilmişləri sil» düyməsi sıxılır. Eyni vaxtda həm yeni məlumatları sistemə daxil etmək, həm də mövcud məlumatları məlumat bazasından silmək mümkündür.

Məlumat dəyişikliyi ilə bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra «İrəli» düyməsi sıxılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün «Qəbul» düyməsini basır. Əks halda, imtina etmək üçün «İmtina» düyməsi icra edilir.

Onlayn rejimdə məlumat dəyişikliyi barədə təqdim edilmiş ərizə üzrə məlumatlar Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə daxil edilmədiyi halda, fərdi sahibkar tərəfindən növbəti məlumat dəyişikliyi ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Fərdi sahibkar tərəfindən daxil edilmiş telefon nömrələri bəlli sayda rəqəmdən az ola bilməz. Fərdi sahibkarın ən azı bir fəaliyyət növü olmalıdır və həmin fəaliyyət əsas fəaliyyət kimi qeyd edilməlidir. Fiziki şəxslər tərəfindən bəzi fəaliyyət növlərinin seçilməsinə məhdudiyyət qoyulmuşdur. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır. İmtinaya əsas olmadıqda fərdi sahibkarın uçot məlumatları dəyişdirilir.

**AYTƏN**

beynəlxalq panoram

# Belarusda kassa aparatları e-qurğularla təmin olunacaq



*Belarusda 2016-cı il aprelin 1-dən mal və xidmətlərin nağd və plastik kartlardan istifadə etməklə satışı yalnız vergi orqanlarının nəzarət qurğularının tətbiq olunduğu elektron kassa aparatları vasitəsilə aparılacaq. Bu barədə Belarus hökuməti və ölkənin Milli Bankının birgə qərarında nəzərdə tutulur. Sözügedən kassaların tətbiqinə 2015-ci ildən başlanacaq və onların tətbiqi mərhələlərlə aparılacaq.*

Vergilər və Yığımlar Nazirliyindən bildiriblər ki, kassa aparatlarına tətbiq edilmiş nəzarət sistemi sahibkarlıq fəaliyyəti subyektlərinin gizlətməyə çalışdığı gəlirlərini aşkar etməyə və həmin obyektlərdə operativ nəzarət tədbirləri həyata keçirməyə imkan verəcəkdir.

Nazirlikdən bildirirlər ki, yeni proqram servisləri təsərrüfat subyektlərinə də öz gəlirlərini və onun strukturunu təhlil etməyə imkan verəcək. 650 kvadratmetrdən çox ticarət sahəsində fəaliyyət göstərən hüquqi şəxslər və fərdi sahibkarlar, eləcə də yanacaqdoldurma məntəqələri yeni kassaları 2015-ci ilin oktyabrın 1-dək tətbiq etməlidir. Taksi və sərnişin daşımalarını həyata keçirən hüquqi şəxslər isə 2015-ci il dekabrın 1-dən yeni kassa sisteminə keçəcək.

2016-cı il fevralın 1-dən yeni kassaların tətbiqi bütün hüquqi şəxslər, 2016-cı il aprelin 1-dən isə fərdi sahibkarlar üçün məcburi olacaq. Qərara əsasən, 6 aydan sonra hüquqi şəxslər və fərdi sahibkarlar plastik kartları qəbul edən ödəmə terminallarından da istifadə etməlidirlər.

# Latviyada «qara siyahı» hazırlanacaq

*Latviyada dövlət gəlirləri xidməti yüksək risk dərəcəsi olan vətəndaşların uçot registrinin yaradılmasını elan edib.*

Bu sənəd fırıldaqçılıq fəaliyyətində adı hallanmış və yaxud da vergilərin ödənilməsi ilə bağlı əvvəllər problemləri olan şəxslərin «qara siyahısı»dır. Reyestrə böyük həcmdə vergi borcu olan hüquqi şəxslər və fərdi sahibkarlar daxil ediləcək. Məsələn, əgər vətəndaşın dövlət qarşısında 7000 avro borcu yaranıbsa, ona yeni müəssisə təsis etmək qadağan ediləcək. Hüquqi şəxslər üçün borcun «qara siyahıya» düşmə həddi 15000 avro təşkil edəcək.

Reyestrə həmçinin yataqxanada yaşayan və ya həbsxanada saxlanılan şəxslər də daxil ediləcək. Hazırda Latviyada sosial müəssisələrdə yaşayan 368 vətəndaş müxtəlif kommersiya müəssisələrində vəzifəli şəxslər kimi qeydiyyatdadır. Vergi orqanları hesab edir ki, belə şəxslərdən vergilərin gizlədilməsi üçün istifadə edilir.

Dövlət gəlirlər xidməti fərdi sahibkarları və hüquqi şəxsləri «qara siyahıya» salmamışdan öncə onlara rəsmi məktubla məlumat verəcək. Dövlət qarşısında borclar ödəndikdən sonra həmin şəxslərin adı siyahıdan çıxarılacaq.



# Londonda «Azərbaycan günü» keçirilib

*Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Londondakı baş qərargahında Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin və AYİB-in təşkilatçılığı, ölkəmizin Böyük Britaniyadakı səfirliyinin, Avropa Azərbaycan Cəmiyyətinin dəstəyi ilə «Azərbaycan Günü» keçirilmişdir.*

Tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyinin, Böyük Britaniyanın dövlət qurumlarının, AYİB-in, Londonda fəaliyyət göstərən diplomatik korpusun və biznes strukturlarının nümayəndələri, eləcə də Azərbaycandan olan iş adamları iştirak etmişlər.

Tədbirdə çıxış edən iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev son 10 ildə ÜDM-in 3,4 dəfə, dövlət büdcəsinin gəlirlərinin 19 dəfə, xarici ticarət dövriyyəsinin təqribən 9 dəfə artdığını vurğulamışdır. Bildirilmişdir ki, yoxsulluğun səviyyəsi son 10 ildə 8 dəfə azalaraq 5,5 faizə enmişdir. Hazırda Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 70 faizindən çoxunu təşkil edir. İqtisadiyyatın şaxələndirilməsi siyasəti davam etdirilir. Xarici dövlət borcu ÜDM-in 8,3 faizini təşkil edir və strateji valyuta ehtiyatları dövlətin xarici borcundan 10 dəfəyədək çoxdur. Təsadüfi deyildir ki, Dünya İqtisadi Forumunun «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatına əsasən, Azərbaycan 148 ölkə arasında 39-cu yerə yüksəlmişdir və ardıcıl olaraq 5 ildir ki, MDB ölkələri arasında liderliyini qoruyur. Nüfuzlu beynəlxalq reytinq agentlikləri - «Standart & Poor's», «Fitch Ratings» və «Moody's» dünya iqtisadi və maliyyə böhranı illərində Azərbaycanın suveren reytinqlərini yüksəldərək investisiya səviyyəsində dəyərləndirmişlər.

Azərbaycanda əlverişli biznes və investisiya mühiti yaradıldığını diqqətə çatdıran Şahin Mustafayev qeyd etmişdir ki, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şərait yaradılması nəticəsində iqtisadiyyata 156 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da təqribən yarısı xarici investisiyalardır.

Tədbirdə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov və Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev, Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) icraçı direktoru Rövşən Nəcəf, «Holcim-Azərbaycan» ASC-nin baş direktoru Rossen Papazov, «Bakı Gəmiqayırma Zavodu» MMC-in baş meneceri David Loh, «CNIM Azərbaycan» MMC-nin idarə heyətinin üzvü Stefano Kosta, AYİB-in Bakı ofisinin rəhbəri Nil Makkeyn çıxış etmişlər.

AYİB prezidenti Suma Çakrabarti Azərbaycanın qazandığı nailiyyətləri, xüsusilə son 10 ildə əldə etdiyi uğurları, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirmiş, AYİB qərargahında «Azərbaycan Günü»nün keçirilməsinin əməkdaşlığın genişləndirilməsində əhəmiyyətini qeyd etmişdir.

Nazir Şahin Mustafayev «Azərbaycan Günü»nün keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə, Avropa Azərbaycan Cəmiyyətinə və AYİB-in rəhbərliyinə təşəkkür etmişdir.

Tədbir iştirakçıları AYİB-in baş qərargahının foyesində Azərbaycan məhsulları ilə tanış olmuş, onlara kulinariya nümunələri və milli musiqimiz təqdim edilmiş, ölkəmizin tarixi, mədəniyyəti və iqtisadi potensialı barədə məlumatları özündə əks etdirən materiallar paylanmışdır.

Tədbir çərçivəsində iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev AYİB prezidenti Suma Çakrabarti və bankın Türkiyə, Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə icraçı direktoru Olivye Dekam ilə görüşmüş, bankla ölkəmiz arasında əlaqələrin daha da genişləndirilməsi perspektivləri müzakirə edilmişdir.

# İtaliyada vergi xidmətinə yüksək texnologiyalar tətbiq ediləcək

*İtaliya vergi intizamının gücləndirilməsi üçün texniki imkanlarını genişləndirir. Vergi xidmətinin tətbiq etdiyi yeni sistem məlumatların təhlilinə əsaslanaraq vergidən yayınanları avtomatik rejimdə müəyyən etməyə imkan verəcək.*

İtaliyanın vergi xidməti yeni avtomatlaşdırılmış kompüter sisteminin tətbiq edildiyini, bu sistem vasitəsilə real vaxt rejimində hər bir vergi ödəyicisinin gəlir və xərclərinin avtomatik təhlilinin aparıldığını və onların arasında vergi hüquqpozmalarına yol verənlərin aşkarlanma imkanlarının yaradıldığını bildirib.

«Reddio metro» adlı yeni sistem 128-dək mümkün dövlət və özəl təşkilatların məlumat bazalarında 80 göstərici üzrə təhlil aparacaq. Sistem ödəyicilərin bəyannamələrində göstərdikləri gəlirləri və real xərcləri arasında 20%-dən və ya 12 min avrodan çox fərqin olduğunu aşkarlayarsa, bu barədə məlumatı avtomatik göstərəcək. İlkin mərhələdə sistem 35 min vergi ödəyicisinin son 4 il ərzindəki məlumatlarının yoxlanılmasına istiqamətlənəcək. Yoxlama parametrləri özünü doğruldacağı halda, onun əhatə dairəsi xeyli artacaq.

İtaliya milli vergi xidmətinin rəhbər müavini Marko Di Kapoa yeni sistemin fərqləndirici xüsusiyyəti kimi onun universallığını, eləcə də həm iri korporativ vergi ödəyicilərinin çoxmilyonlu, həm də fərdi sahibkarların mürəkkəb olmayan pozuntularını aşkar etmək qabiliyyətini göstərib.

krossvord




**Yuxarıdan aşağı:**

1.Qədim Romada yüksək vəzifəli şəxsin fövqəladə fərmanı; 2.Görkəmli Azərbaycan şairi S.Vurğunun dram əsəri; 3.Azərbaycan caz ifaçısının adı, «Syndicate» caz qrupunun yaradıcısı; 4.Kiçik məişət texnikası; 5.Görkəmli Azərbaycan və sovet opera və estrada müğənnisi; 6.Yırtıcı məməli heyvan cinsi; 9.Bir karbon və üç hidrogen atomlu orqanik birləşmə. Metan qazının birvalentli radikalı; 11.Türk mifologiyasında heyvan tanrısı *(xan)*; 13.İspaniyada ali titul; 14.Çay dəmləmək və dəmli çayın rənginin açılması üçün lazım olan isti suyun qaynadılmasında istifadə edilən və içərisində kömür yanan ocağı olan qab; 15.Siciliyadan tünd desert şərabı; 17.Təbiət, cəmiyyət və insan təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növü; 18.Kimyəvi elementlərin dövri sistemində 54-cü element; 21.Azərbaycan şairi, yazıçı və dramaturq H.Cavidin əsəri; 22.Qurani-Kərimdə 112-ci surə; 23.Musiqi əsərinin ifa sürəti.

**Soldan sağa:**

1.Qədim yunanlarda abidələr, binalar, hədiyyələr və s. üzərində yadigar yazı; 5.İngiltərənin məşhur teleradio şirkəti; 7.Şüuraltı hərəkət; 8.Kimyəvi elementlərin dövri sistemində 92-ci element; 10.Ağır zirehli texnika; 12.Faktların məntiqi təhlili ilə ağır cinayətlərin açılmasından bəhs edən bədii ədəbiyyat növü; 14.RF-də şəhər; 16.Elm, texnika, mədəniyyət sahəsində bir hadisənin, istiqamətin banisi, təməlini qoyan, cığıraçan; 19.Dəniz mövzularında əsərlər işləyən rəssam; 20.Amerikada telelayihələrə və televiziya məhsullarına verilən mükafat; 24.Həkim *(rusca)*; 25.Riyaziyyat termini; 26.İspaniyada şəhər; 27.ABŞ-ın Merilend ştatının paytaxtı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Volvo; 2.Lobbi; 3.Sarı; 4.Ponçik; 5.Ametist; 6.Kentavr; 9.Valeh *(Kərimov)*; 11.Dua - Çağırış, dindarların Allaha, tanrılara və s. fövqəltəbii qüvvələrə müraciəti; 13.Lampa - Süni işıq mənbəyi; 14.Babayev *(Mirzə)*; 15.Ondatra; 17.«Ana»; 18.Eşelon; 21.Dosye; 22.Manna; 23.Kvas. **Soldan sağa:** 1.Velosiped; 5.Aik; 7.Labirint; 8.Neon; 10.Odin; 12.Piramida; 14.Baobab; 16.Hektar; 19.Budapeşt; 20.Edam; 24.Yota; 25.Klavesin; 26.VİA; 27.İonosfera.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Güləş üzrə «Qızıl Qran-Pri» beynəlxalq turniri başa çatdı

*«Sərhədçi» Olimpiya İdman Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-Pri» beynəlxalq turnirinin final yarışları başa çatmışdır.*




Bu mötəbər yarışda ölkəmizi təmsil edən idmançılarımız tarixi nəticə göstərərək 9 qızıl, 6 gümüş, 9-u isə bürünc olmaqla, ümumilikdə 24 medal qazanmışlar.

Yarışların birinci günü - noyabrın 22-də yunan-Roma güləşi üzrə bütün çəki dərəcəsində qaliblər müəyyənləşmişdir. 55 kiloqram çəki dərəcəsində bürünc medalı Şadibk Sulaymanov (Qırğızıstan) və Eldəniz Əzizli (Azərbaycan), gümüş medalı Orxan Əhmədov (Azərbaycan), qızıl medalı isə Nursultan Kalmurzayev (Qazaxıstan) qazanmışdır. Yarışlarda iştirak edən 60 kiloqram çəkidə Pavel Salleyev (Rusiya) və Taleh Məmmədov (Azərbaycan) üçüncü, Abdolmohammad Papi (İran) ikinci, Kamran Məmmədov isə birinci olmuşdur. 66 kiloqram çəki dərəcəsində güləşçilərdən Dominik Etlinger (Xorvatiya) və Omid Haci Noorozi (İran) bürünc, Vitali Rəhimov (Azərbaycan) gümüş, Rəsul Çunayev (Azərbaycan) qızıl medal qazanmışlar. Yarışlarda 74 çəki dərəcəsində Mikola Daragan (Ukrayna) və Uşanq Çitaşvili (Gürcüstan) üçüncü, Mark Madsen (Danimarka) ikinci, Rafiq Hüseynov (Azərbaycan) birinci olmuşdur. 84 kiloqram çəkidə Şəhriyar Məmmədov (Azərbaycan) və Viktor Lorinş (Hollandiya) bürünc, Cim Petterson (İsveç), Saman Təhmasibi (Azərbaycan) qızıl medal qazanmışdır. Birincilikdə 96 kiloqram çəki dərəcəsində idmançılardan Süleyman Dəmirçi (Türkiyə) və Beka Rogua (Gürcüstan) üçüncü, Martin Nielsen (Norveç) ikinci, Belasz Kias (Hollandiya) birinci olmuşlar, 120 kiloqram çəkili güləşçilərdən Mihali Deak Baros (Hollandiya) və Atilla Güzel (Türkiyə) bürünc, Yakobi Kajaia (Gürcüstan) gümüş, Sabahi Sariat (Azərbaycan) qızıl medal qazanmışlar. Bununla da yarışın birinci günündə Azərbaycan idmançıları beş qızıl, iki gümüş və üç bürünc medalla turniri qələbə ilə başa vurmuşlar.

Yarışın ikinci günü qadın güləşçilər arasında bütün çəki dərəcələri üzrə qaliblər müəyyənləşmişdir. 5 çəki dərəcəsində mübarizə aparan güləşçilərimizdən yalnız Yuliya Ratkeviç (59 kq) inamlı təsir bağışlamışdır. Final görüşündə də rəqibindən üstün olan təmsilçimiz qızıl medala sahib olmuşdur. 48 kq-da mübarizə aparan Anjela Doroqan və 63 kq-da təmsilçimiz Raqnetta Qurbanzadə isə bürünc medal qazanmışlar. Beləliklə, qadın güləşçilərimiz turniri 1 qızıl və 2 bürünc medalla başa vurmuşlar.

Turnirin sonuncu günü - noyabrın 24-də döşək üzərinə sərbəst güləşçilər çıxmışlar. Bu dəfə də pəhləvanlarımız rəqiblərindən daha güclü olduqlarını sübut etmişlər. İdmançılarımız 3 qızıl, 4 gümüş və 4-ü bürünc medal olmaqla, ümumilikdə 11 medal qazanmışlar. Əhmədnəbi Qvarzatilov (60 kq), Həmzət Osmanov (84 kq) və Xetaq Qazyumov (96 kq) turnirin qızıl medalına sahib olmuşlar. Yaşar Əliyev (55 kq), Hacı Əliyev (60 kq), Şərif Şərifov (96 kq) və Əli İsayev (120 kq) yalnız finalda məğlub olaraq gümüş medalla kifayətlənmiş. Ruslan Dibirhacıyev (66 kq), Cəbrayıl Həsənov, Əşrəf Əliyev (hər ikisi 74 kq) və Cəmaləddin Məhəmmədov (120 kq) isə turniri bürünc medalla yekunlaşdırmışlar.

# Bakıda dünya səviyyəli avtoralli keçirilib

**Noyabrın 24-də Azərbaycan paytaxtında dünya səviyyəli «FİA GT Series»in final mərhələsi - «Baku World Challenge» avtorallisi keçirilmişdir.**

Gərgin mübarizə şəraitində davam edən yarışın yekunlarına əsasən, finişə birinci çatan Belçikanın «Audi Club» komandasının pilotu Laurens Vantur «Audi R8» avtomobilində qalib olmuşdur. Fransanın «Hexis Racing» komandasının pilotu Kevin Estre «McLaren» avtomobilində finişə ikinci çatmışdır. Almaniyanın «HTP Gravity Charouz» komandasının pilotu Alon Day isə üçüncü nəticə göstərmişdir.

Yarışdan sonra Dövlət Bayrağı Meydanında təntənəli mükafatlandırma mərasimi keçirilmişdir. Qaliblərə kubok və pul mükafatları təqdim olunmuşdur. Birinci yerin sahibi 100 min, ikinci yeri tutan 50 min, üçüncü nəticə göstərən idmançı isə 25 min avro qazanmışdır.

Avtoralli Bakıda uzunluğu 4 kilometr olan, Dövlət Bayrağı Meydanından dəniz sahili boyu xüsusi hazırlanmış yolda keçirilmişdir. Yarışda 14 beynəlxalq komanda və 30 yarış avtomobili iştirak etmişdir.

# «Bakı–2015» Avropa Oyunlarının rəsmi loqosu

**Noyabrın 23-də Romada keçirilən Avropa Olimpiya Komitəsinin 42-ci Baş Assambleyası işini başa çatdırmışdır. Tədbirin son günü «Bakı-2015» Avropa Oyunlarının təqdimatı olmuşdur.**




Təqdimat çərçivəsində Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov 2015-ci ilin iyununda Bakıda keçiriləcək birinci Avropa Oyunlarının rəsmi loqosunu təqdim etmişdir.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki «Bakı-2015» Avropa Oyunlarının rəsmi loqosunun təqdim edilməsinin tədbirə hazırlıq istiqamətində vacib bir mərhələ olduğunu diqqətə çatdırmışdır. Onun dediyinə görə, Avropa Oyunlarında 49 ölkədən 5400-dən çox atlet 18 idman növü üzrə yarışacaqdır.

35 yaşlı azərbaycanlı dizayner Adəm Yunisov tərəfindən tərtib edilmiş bu yeni loqo alov, su, əfsanəvi simurq quşu, xalı və nar da daxil olmaqla, ev sahibi ölkənin qədim və müasir mədəniyyətini əks etdirən beş başlıca elementi bir araya gətirmişdir. A.Yunisovun açıq ictimai müsabiqə nəticəsində seçilmiş loqo tərtibatı ölkənin təbii gözəlliklərini, mədəniyyət və irsini, o cümlədən Avropanın ən sürətlə inkişaf edən şəhərlərindən biri kimi Bakının assosiasiyasını təsvir edir.

## mozaika

texnologiya



# «Titan» Azərbaycana gəlir

**Gələn ayın əvvəllərində Bakıda Xəzər və Qafqaz regionlarının ən böyük sərgisi - «BakuTel 2013 - Telekommunikasiya və informasiya texnologiyaları» sərgisi açılacaq.**

Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» ilə əlaqədar olaraq, «BakuTel» sərgisinin təşkilatçıları ənənəvi və zəngin proqramla yanaşı, bu mühüm tədbiri layiqincə qeyd etmək üçün sürprizlər də hazırlayıblar. Bu sürprizlərdən biri də «BakuTel» sərgisində «Titan» robotunun iştirakı olacaq. «Titan» robotu Tokiodan tutmuş Vankuverə qədər bütün dünya ölkələrində olub. Bu robot Əbu-Dabidə «Qran-Pri Formula 1» yarışında qonaq olub və iri şirkətlərin, eləcə də məşhur brend və markaların təqdimatlarında göstərilib. «Titan» robotu dünya miqyaslı superulduz Rihannanın konsert turnesini də uğurla müşayiət edib.

«Titan» həmçinin 2011-ci ildə çox məşhur «Canlı polad» («Real Steel») döyüş filminin epizodik obrazı olaraq, Hyu Cekman və rejissor Şavn Levi ilə birlikdə filmin premyeralarında iştirak edib.

2,5 metr hündürlüyü olan «Titan» robotunun ABŞ-dan hava nəqliyyatı ilə daşınması «Hummer» markalı bir neçə hərbi avtomobilin daşınması ilə eyni qiymətə başa gəlir. «Titan» ilə ilk görüş öz görkəm və dinamikası ilə auditoriyada təəssürat fırtınasına səbəb olur.

Eyni zamanda həm hərəkət edən, həm də insanlarla dialoq quran bu nəhəng robot onu görənləri şoka salsa da, bir neçə dəqiqədən sonra hamı ona yaxınlaşaraq toxunmaq istəyir. Beləliklə, «Titan» robotu 2, 3 və 4 dekabr tarixində Bakı Ekspo Mərkəzinin üçüncü pavilyonunda sərgi iştirakçıları və ziyarətçilərinin yolunu gözləyəcək».

# Kompüter-şəhər inşa olunacaq

*Portuqaliyanın Paredeş şəhəri yaxınlığında unikal kompüter-şəhər inşa olunacaq. Bu qeyri-adi tikintinin özəlliyi ondan ibarətdir ki, bütün elementlər, o cümlədən yol hərəkəti və ya fənər işıqları vahid əməliyyat sisteminin köməyi ilə idarə ediləcək. «Plaint Valley» adlandırılan kompüter-şəhər 225 min nəfərin məskunlaşması üçün nəzərdə tutulub.*



Layihənin rəsmi saytında qeyd edildiyinə görə, «PlanIT Valley» Portuqaliya hökumətinin milli maraqlar dairəsinə aid edildiyi üçün şəhər insanların yaşayış yeri olmaqla yanaşı, həm də tərəfdaş şirkətlərin təcrübə laboratoriyası, smart texnologiyalar və startaplar üçün sınaq mərkəzi rolunu oynayacaq.

Layihəyə əsasən, şəhərdəki çoxsaylı cihazlar temperaturu, işıqlanma səviyyəsini, rütubəti, hərəkət intensivliyini, istilik və su təchizatının vəziyyətini ölçəcək və əldə olunan məlumatlar daim toplanaraq təhlil ediləcəkdir.

Əgər şəhərin bir hissəsində suyun yüksək səviyyədə olması qeydə alınsa, nasoslar onu şəhərin digər hissəsinə çəkib vuracaqlar. Gündüz havanın aşağı temperaturda olacağı proqnozlaşdırılsa, sistem avtomatik olaraq evlərdə temperaturu və küçə işıqlarının parlaqlığını artıracaqdır.

Qeyd etmək lazımdır ki, yerli sakinlər şəhər infrastrukturunun bir hissəsini müstəqil şəkildə idarə edə biləcəklər.

# İşin stresləri genetik dəyişikliklərə yol açır

sağlam hayat tarzi



Müntəzəm streslər immun sistemi hüceyrələrinin əslində mövcud olmayan xəstəliklərə qarşı mübarizəyə başlamasına səbəb olur. İşdəki gərginliklərlə bağlı streslər ilk növbədə ürək-damar xəstəliklərinin ağırlaşmasına gətirib çıxarır. Gərgin şəraitdə ağır iş hətta immun sistemində genetik dəyişikliklər də əmələ gətirə bilir.

ABŞ-ın Ohayo Universitetinin alimləri işdə tez-tez əsəbiləşən adamların qan nümunələrini tədqiq etmişlər. Mütəxəssislər bu nümunələri eksperiment məqsədilə qəsdən stres vəziyyətinə salınmış laboratoriya gəmiricilərinin qan nümunələri ilə müqayisə etmişlər. Nəticədə alimlər əslində mövcud olmayan xəstəliklərlə mübarizə aparan iltihablaşmış hüceyrələrin meydana çıxdığını aşkar etmişlər.

İmmun sisteminin iltihablaşan hüceyrələri isə ürəyin, qan damarlarının və qaraciyərin fəaliyyətinə mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, stres orqanizmi gün ərzində çəkilmiş beş siqaret qədər zəiflədir.

# Müəllimin tapdığı pul...

maraqlı



ABŞ-ın Konnektikut ştatındakı Nyu-Heyven şəhərində yaşayan ravvin, eyni zamanda müəllim Noa Muroff öz vicdanlı hərəkəti ilə hamını heyrətləndirmişdir. Elanlar saytı vasitəsilə aldığı köhnə yazı masası Muroffun kabinetinin qapısından keçmədiyinə görə masanı sökmək lazım gəlmişdi. Masa sökülərkən orada əskinasla dolu bir paket görən ravvin heyrətlənmişdi. O, masanın siyirmələrindən birinin içindən 98 min dollar nağd pul tapmışdı. Sonra baş verənləri Noa Muroff belə açıqlamışdır: «Mən arvadımı çağırdım, bir-birimizin üzünə baxdıq və başa düşdük ki, bu pulları özümüzə saxlaya bilmərik».

Muroff yazı masasını ona 150 dollara satmış qadına zəng vuraraq tapdığı pul barədə ona məlumat vermişdir. Muroff demişdir: «Qadın heyrətə gəlmişdi. Bu pullar ona miras qalıbmış. O, pulları yazı masasının yeşiyində gizlətmiş, sonra isə tamam unudubmuş».

Ertəsi gün Noa Muroff və arvadı həmin pulları əsl sahibinə çatdırmağa gedəndə özləri ilə dörd uşağını da götürmüşdülər, istəyirdilər ki, namuslu olmağın vacibliyini onlara nümayiş etdirsinlər.

Pulların sahibi təşəkkürünü bildirərək demişdir: «Sizin kimi hərəkət edə biləcək adamların Yer üzündə çox olduğunu güman etmirəm».

## Müdriklər deyib ki...

*«Yaşamağın iki yolu var. Birincisi – elə yaşayırsan ki, sanki ömründə heç bir möcüzə olmur. İkincisi –dünyada sanki hər şey möcüzə imiş».*

*Albert Eynşteyn (1979-1955)*

